

Milli azadlıqdan
şirin nemət yoxdur!




YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
01 aprel
2026-cı il,
çərşənbə
№ 053 (7120)
Qiymәti
60 qəpik

# 108 il əvvəl...

## Ermənilərin törətdiyi mart soyqırımında on minlərlə azərbaycanlı qətlə yetirilib

Bax səh. 2




# Vətən müharibəsinə 4 il qalırdı...

## 2016-cı il Aprel döyüşlərindən 10 il ötür



Bax səh. 4

# Regionlar uğurla inkişaf edir

Bax səh. 3

# Ən ali dəyərlərə uyğun davranış

## Dövlətçilik anlayışı - cəsarət, milli maraqlar, müstəqil siyasi kurs, qonşuluq prinsipləri, beynəlxalq hüquq, humanizm...



Bax səh. 5

## MDB regionunda ilk yeni enerji modeli

Bax səh. 3

## Ölkəmiz müstəmləkəçiliyə qarşı...

Bax səh. 4

## Azərbaycan ən təhlükəsiz ölkələrdəndir...

Bax səh. 6

## Neft və qazın bahalaşması dünya iqtisadiyyatını təhdid edir

Bax səh. 6

# Müharibə bitir, yoxsa?...



Bax səh. 7

# 108 il əvvəl...

## Ermənilərin törətdiyi mart soyqırımında on minlərlə azərbaycanlı qətlə yetirilib

**Azərbaycan xalqı son iki yüz ildə erməni vandalizmi və terrorizminə məruz qalıb. Bu dövrdə ermənilər xalqımıza qarşı milli-etnik zəmində kütləvi qətliamlar, soyqırımı aktları törədib, bəşəriyyət əleyhinə qəddar və amansız cinayətlərə imza atıblar. 31 mart 1918-ci ildə baş vermiş soyqırımı da tarixin və xalqımızın hafizəsinə əbədi həkk olunmuş qan yaddaşıdır. Bu qətliamın törədilməsindən 108 il ötür.**

**Ümummilli Liderin 1998-ci il martın 26-da imzaladığı Fərmanla martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli Fərmanı da Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Həmin fərmanlar təkcə tariximizin qanlı səhifələrinin öyrənilməsi və yaddaşlarda həkk olunması ilə deyil, erməni şovinizmi və terrorizminin ifşa olunması baxımından da əhəmiyyətlidir**

### "Qanlı mart" soyqırımı bəşər tarixinin ən dəhşətli faciələrindəndir

"Qanlı mart" soyqırımı öz amansızlığına və miqyasına görə bəşər tarixinin ən dəhşətli faciələrindəndir. Daşnak-bolşevik işğalçıları əllərinə düşən fürsətdən maksimum istifadə edərək uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirib, diri-diri yandırıb, azərbaycanlılara qarşı misli görünməmiş qırğınlar törədiblər. Onlar Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə 70 mindən çox günahsız insanı amansızlıqla qətlə yetirib, Bakı qəzasında 229, Gəncə qəzasında 272, Zəngəzur mahalında 115, Qarabağda isə 157 kənd yerlə-yeksan edilib, yaşayış məntəqələrini yandırıb və minlərlə ailəni öz doğma yurdlarından didərgin salıblar. Mart qırğınları zamanı təkcə Bakıda 30 min nəfərə qədər azərbaycanlının öldürüldüyü bildirilir. Bütün bunlar öz miqyasına və nəticələrinə görə həm beynəlxalq hüquq normaları ilə təsbit olunmuş konvensiyalara, həm də mənəvi-əxlaqi kodekslərə əsasən insanlığa qarşı və bəşəriyyət əleyhinə törədilmiş cinayətlər sayılır.

Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən 31 Mart ümummilli matəm günü elan edilib. 1918-ci il iyulun 15-də Nazirlər Şurasının qərarı ilə həmin faciəni araşdırmaq məqsədilə Fövqəladə İstintaq Komissiyası yaradılıb. Komissiya ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırıb. Soyqırımı həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum da təsis edilib. Bununla da azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı və torpaqlarımızın bir əsrdən çox davam edən işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət verməyə cəhd göstərilib. Lakin Cümhuriyyətin süqutu bu sahədə başlanmış işi yarımçıq qoyub.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılan Fövqəladə İstintaq Komissiyasının sənədlərində 1918-ci ilin mart-aprel aylarında Şamaxı qəzasında azərbaycanlılar yaşayan 58 kəndə ermənilərin hücumu zamanı 3632 kişinin, 1771 qadının, 956 uşağın vəhşicəsinə öldürüldüyü qeyd olunurdu. Lakin ekspertlərin digər arxiv sənədləri əsasında apardıqları hesablamalara görə, Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlı qətlə yetirilib. Onlardan 4190-nı kişi, 2560-ı qadın, 1277-si uşaq olub. Digər bir mənbədə isə Şamaxının 72 kəndində ermənilərin 7 min nəfəri, o cümlədən 1653 qadın və 965 uşağı öldürdüyü göstərilir. Fövqəladə İstintaq Komissiyası tərəfindən həmin dövrdə Şamaxı qəzasındakı 120 kəndin 86-sının erməni təcavüzünə məruz qaldığı təsdiqlənib. Komissiya işini dayandırdığından digər 34 kənd haqqında məlumat toplamaq mümkün olmayıb.

Şamaxıda 1918-ci ilin mart-aprel aylarında öldürülənlərin sayının dəqiqləşdirilməsi ilə bağlı ötən əsrin 90-cı illərindən etibarən yerli tədqiqatçılar da

### Fövqəladə İstintaq Komissiyasının təhqiqatı...

bir sıra araşdırmalar aparıblar. Onların tədqiqatı nəticəsində (yüz nəfərə yaxın şahiddən toplanan xatirə və məlumatlar) müəyyən edilib ki, erməni cinayətkarları - S.Şaumyan, S.Lalayev, Z.Arestisyan, T.Əmirov və A.Əmiryan qardaşlarının rəhbərliyi ilə Şamaxı şəhərində təqribən 14-16 min, onun 40 kənd və obasında 6-8 min nəfər qətlə yetirilib. Şamaxı qəzasından didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olub.

1918-ci ilin ilk beş ayında Quba qəzasında 16 mindən çox insan amansızlıqla qətlə yetirilib, 167 kənd isə tamamilə dağıdılıb. Erməni-daşnak dəstələrinin orada azərbaycanlıları kütləvi şəkildə qətlə yetirmələrinə dair bir sıra yeni faktlar üzə çıxıb. Bu faktların biri də 2007-ci ildə Quba şəhərində kütləvi məzarlıqların aşkar edilməsidir. Amazaspın rəhbərliyi ilə erməni hərbi birləşmələri Qubada türk-müsəlman əhalisi ilə yanaşı, yəhudilərə qarşı da qırğınlar törədiblər. Aparılan tədqiqatlar nəticəsində 1918-1919-cu illərdə Qubada ermənilər tərəfindən 3 min nəfərə qədər yəhudinin qətlə yetirildiyi məlum olub.

Həmin hadisədən 74 il sonra tarix yenidən təkrarlanıb. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində ermənilərin zaman-zaman törətdikləri qanlı qırğınların davamı olan daha bir dəhşətli soyqırımı həyata keçirilib. Ən müasir hərbi texnika və silahların köməyi ilə gecə vaxtı şəhərə hücum edən erməni quldurları 613 nəfəri, o cümlədən 106 qadını, 63 uşağı və 70 qocanı xüsusi amansızlıqla qətlə yetiriblər. Həmin dəhşətli gecədə 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralanıb, 1275 nəfər girov götürülüb.






### Heydər Əliyev martın 31-ni Azərbaycanlıların Soyqırımı Günü elan edib

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinə obyektiv qiymət vermək və ermənilərin havadarlarının dəstəyi ilə iki yüz il ərzində həyata keçirdiyi soyqırımı siyasətinin faciəvi nəticələrini üzə çıxarmaq imkanı yaranıb. Soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması üçün Azərbaycan dövləti bütün zəruri addımları atmağa başlayıb. Bu sahədə məqsədyönlü fəaliyyət Ulu Öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ümummilli Liderin 1998-ci il martın 26-da imzaladığı Fərmanla martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli Fərmanı da Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Həmin fərmanlar təkcə tariximizin qanlı səhifələrinin öyrənilməsi və yaddaşlarda həkk olunması ilə deyil, erməni şovinizmi və terrorizminin ifşa olunması baxımından da əhəmiyyətlidir.

Azərbaycanlılara qarşı törədilən qanlı cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha geniş və dolğun şəkildə çatdırılması məqsədilə Prezident İlham Əliyev 2018-ci ildə - soyqırımının 100 illiyi ərəfəsində Sərəncam imzalayıb. Bu məqsədlə xüsusi Tədbirlər Planı hazırlanaraq həyata keçirilib. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında dövlət qurumları ilə yanaşı, Heydər Əliyev Fondu da çox mühüm rol oynayır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond istər ölkədən kənarda, istərsə də respublikamızda bu istiqamətdə çox vacib layihələr reallaşdırır. Heydər Əliyev Fondunun dəstəyi ilə Quba Soyqırımı Memorial Kompleksinin yaradılması Fondun bu məsələyə nə dərəcədə həssas yanaşdığını nümayiş etdirir.

### Prezident və Birinci vitse-prezident Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib

Ermənilərin tarix boyu xalqımıza qarşı törətdiyi bütün cinayətlərin cavabı 2020-ci ilin sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsində, həmçinin 2023-cü ilin sentyabrında qətiyyətlə verilib. Soyqırımı qurbanlarının, şəhidlərimizin qisasını Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə döyüş meydanında alıb. Ermənistanın 30 il davam edən işğalına son qoyulub, ölkəmizin ərazi bütövlüyü bərpa olunub. 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri nəticəsində isə suverenliyimiz tam təmin edilib.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edilib. Birinci vitse-prezident Mehriban xanım Əliyeva da sosial şəbəkə hesablarında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib. Paylaşımda deyilir: "Soyqırımı qurbanlarının nurlu xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

### XİN: Bu qırğınlar məhz milli nifrət zəminində törədilib

Azərbaycanın Xarici İşlər Nazirliyi isə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı bəyanat yayıb. Bəyanatda bildirilir ki, 1918-ci ilin martında Bakı Sovetinin 6000 və "Daşnaksütyun" partiyasının 4000 silahlı üzvü tərəfindən həyata keçirilmiş soyqırımı etnik təmizləmə siyasətinin ən qəddar nümunələrindən biri kimi tarixə həkk olunub. Həmin dövrdə Qafqazın Fövqəladə Komissarı Stepan Şaumyanın etirafları da sübut edir ki, bu qırğınlar "əks-inqilabçılıqla mübarizə" pərdəsi altında məhz milli nifrət zəminində törədilib. Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan və İrəvan kimi bölgələrdə planlı şəkildə həyata keçirilmiş bu cinayətlər nəticəsində on minlərlə azərbaycanlı qətlə yetirilib. Təkcə Qubada 16 mindən çox insan öldürülüb, 167 kənd yerlə-yeksan edilib. Dinc əhali ilə yanaşı, xalqımızın dini və mədəni irsi hədəf alınıb, məscidlər və tarixi abidələr dağıdılıb. "Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulmasından sonra hadisələrin tədqiqinə, habelə dünya ictimaiyyətinə çatdırılması məqsədilə xüsusi təsisatların yaradılmasına, 31 mart tarixinin ümummilli matəm günü kimi qeyd edilməsinə baxmayaraq, Cümhuriyyətin süqutu bu cinayətə siyasi-hüquqi qiymətin verilməsinə mane olub. Müstəqilliyimizin bərpasından sonra Ümummilli Lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanı ilə bu qətliamlara dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilib. XX əsrin əvvəllərində bu qanlı soyqırımı siyasəti sonrakı dövrlərdə də davam etdirilib, əsrin sonlarına doğru azərbaycanlıların indiki Ermənistan ərazisindən kütləvi deportasiyası, Azərbaycan ərazilərinin işğalı illərində törədilmiş qətliamlar, xüsusilə Xocalı soyqırımı və digər müharibə cinayətləri ilə sistematik xarakter alıb. Azərbaycan xalqı tariximizin bu qanlı səhifələrini heç zaman unutmayacaq",- deyə bəyanatda vurğulanıb.

Bütövlükdə, Azərbaycan xalqı soyqırımı qurbanlarının xatirəsini dərin hüznlə və ehtiramla anır, onların faciəli taleyini unutmur. Eyni zamanda, tarixi ədaləti bərpa edərək qazandığı Zəfərlə öz gücünü və qətiyyətini bütün dünyaya nümayiş etdirməyin qürurunu yaşayır.

***Nardar BAYRAMLI***

# Regionlar uğurla inkişaf edir

## İlham Əliyev: Elə etməliyik ki, insanlarımız daha yaxşı yaşasın, iş yerləri olsun, dolanışıq yaxşı olsun

Azərbaycanın paytaxtı ilə yanaşı, regionları da sosial-iqtisadi cəhətdən dinamik inkişaf edir. Regionların siması son illər əhəmiyyətli dərəcədə dəyişib. Buna səbəb olan amillərdən biri isə regionların inkişafına ölkə-








də davamlı həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi baxılmasıdır. Aparılan işlər biznes və investisiya mühitinin, əhalinin rifahının yüksəlməsinə və ekoloji təhlükəsizliyin güclənməsinə şərait yaradıb, bu isə həm də dayanıqlı iqtisadi inkişafın təmini deməkdir.

Hazırda regional iqtisadi siyasətin əsas hədəfləri bölgələrdə iqtisadi aktivliyin artırılması, regionlara daxili və xarici sərmayələrin cəlb olunması, texnologiyaların tətbiq edilməsi, istehsal və ixrac imkanlarının artırılmasıdır. Ötən dövrdə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının həyata keçirilməsi bölgələrin inkişafında müstəsna əhəmiyyət kəsb edir. Bu proqramlar regionlarda sahibkarlığın inkişafı üçün münbit şəraitin yaradılması, yeni müəssisələrin və iş yerlərinin açılması və bunun nəticəsi olaraq, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında, eləcə də yoxsulluq səviyyəsinin aşağı düşməsində mühüm rol oynayıb.

**"Şirvan Aqro": MDB məkanında ən böyük heyvandarlıq müəssisələrindən biri**

Bütövlükdə, regionların inkişafı Azərbaycanın iqtisadi diversifikasiya siyasətinin ön komponenti olmaqla yanaşı, yeniləşmə, davamlı inkişaf, sosial-iqtisadi tarazlıq, modern reformalar, innovativ iqtisadiyyata hazırlıq, kreativ quruculuq və digər sistemli hədəflərin reallaşmasında mühüm dövlət siyasətinin tərkib hissəsini təşkil edir. Regionların inkişafı ilə bağlı 2004-cü ildən başlayaraq həyata keçirilən kompleks tədbirlərin icrasının mövcud tendensiyası, qazanılmış nailiyyətlər tam əsasla bir real tezisi meydana çıxarır: Ötən dövrdə Azərbaycan iqtisadi, sosial, siyasi, ictimai, humanitar, elmi-mədəni cəhətdən əsaslı dönüşə və yüksək indikatorlara nail olan, iqtisadiyyatını bir neçə dəfə inkişaf etdirməklə dünya üzrə ən proqressiv meyarlara malik olan tam modernləşən dövlətə çevrilib.

Qeyd edək ki, regionların sosial-iqtisadi inkişafı Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzindədir. Dövlət başçısı mütəmadi olaraq bölgələrə səfər edir, görülən işlərlə şəxsən tanış olur, yeni-yeni açılışlar edir. Bu faktı Prezidentin Şamaxı rayonuna səfəri də təsdiqləyir. Belə ki, Prezident İlham Əliyev martın 23-də Şamaxı rayonunda "Şirvan Aqro" heyvandarlıq kompleksinin açılışında iştirak edib. 100 hektara yaxın ərazini əhatə edən kompleksin yaradılmasında məqsəd ölkə əhalisinin yüksəkkeyfiyyətli süd və ət məhsulları ilə təmin olunmasına, bu məhsulların ixracına, həmçinin regionun inkişafına, xüsusən də Şamaxı və ətraf rayonlarda məşğulluğun artırılmasına töhfə verməkdir.

Kompleksdə 9000 baş heyvanın - 3200 baş südlük, 3000 baş ətlik mal-qaranın və 2800 baş buzovun saxlanılmasına şərait var. Hazırda burada Holşteyn-Friz, Limuzin, Aberdin-Anqus və digər cinslərdən heyvanlar saxlanılır. Ən son texnologiyalarla təchiz edilən və süni intellekt vasitələri ilə idarə olunan bu kompleks Qafqaz regionunda və MDB məkanında ən böyük heyvandarlıq müəssisələrindən biridir. Bura ölkəmizdə alternativ və "yaşıl enerji"dən istifadə edən ilk heyvandarlıq kompleksidir.

Kompleksdə yüksəkixtisaslı mütəxəssislərin hazırlanması üçün dünyanın qabaqcıl texnologiyalarının tətbiqini öyrədəcək Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərəcək. Müəssisədə Azərbaycanın və Cənubi Qafqazın ən böyük "Karusel" tipli süd sağımı, həmçinin "Paralel" sağım sistemləri yaradılıb. Hər bir sağım nöqtəsində süd keyfiyyətinin onlayn analizatoru quraşdırılıb. Ölkədə südün 32 dərəcədən 4 dərəcəyədək sürətli soyudulması üçün qabaqcıl sistem, həmçinin dünyadakı ən son genetik materiallar əsasında fəaliyyət göstərən, süd həcminin artırılmasını təmin edən ilk Reproduksiya Mərkəzi yaradılıb.

**200-dən çox sakin işlə təmin olunub**

Saxlanılan heyvanlar arasında xəstəliklərin erkən diaqnozu və tez bir zamanda müalicəsi üçün tətbiq olunan innovativ sürü idarəetmə sistemi mövcuddur. Burada real vaxtda sürü inkişafı monitorinqinin həyata keçirilməsi, kökəltmənin səmərəli idarə edilməsi və çəkinin elektron hesablanması üçün xüsusi tərəzi sistemi tətbiq olunur. Heyvanların identifikasiya və sağlamlıq vəziyyətinin qeydiyyatı, eyni zamanda, mayalanmanın dəqiq vaxtının müəyyən edilməsi üçün elektron boyunbağılardan istifadə olunur. Kompleksdə innovativ və xüsusi stasionar avadanlıqlarla təchiz edilən yem mərkəzi də fəaliyyət göstərir. Burada, həmçinin innovativ sistemlərlə təchiz olunan, "Dry Age" otağına malik ət kəsimi məntəqəsi yaradılıb.

Müəssisədə Şamaxı və ətraf rayonların 200-dən çox sakini işlə təmin olunub. Kompleksin ərazisində digər rayonlardan buraya işləməyə gələnlər və xarici mütəxəssislərin qalması üçün yaşayış binası da var. Dövlət başçısı müəssisənin əməkdaşları ilə görüşü zamanı bildirib ki, bu müəssisənin həm Şamaxı rayonunun, həm də ümumilikdə ölkəmizin kənd təsərrüfatının inkişafı üçün çox böyük əhəmiyyəti var. "Bu, nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük həm ətlik, həm südlük təsərrüfatıdır. Bizdə indi idxal həcminin azaldılması istiqamətində işlər aparılır. Biz elə etməliyik ki, özümüzü həm ətlə, həm südlə, süd məhsulları ilə 100 faiz təmin edək. Buna yaxınıq, amma hələ ki, buna nail ola bilməmişik. Belə təsərrüfatların fəaliyyətə başlaması bu məqsədi də təmin edəcək və gələcəkdə biz hətta ət və süd məhsullarını ixrac edə də bilərik",-deyə Prezident İlham Əliyev vurğulayıb.

Dövlət başçısı, həmçinin Şamaxıda çox böyük işlər görüldüyünü, bu rayonun ölkəmizin turizm mərkəzlərindən birinə çevrildiyini diqqətə çatdıraraq vurğulayıb: "Bir çox müasir istirahət zonaları, hotellər, iaşə, mədəniyyət, təhsil obyektləri yaradılıb. Şamaxı-Bakı avtomobil yolu da çox müasirdir. İndi həm Bakı ilə, həm ölkəmizin həm qərb, şimal-qərb bölgələri ilə əlaqə üçün yeni imkanlar var. İndi Şamaxı-İsmayıllı-Qəbələ yeni avtomobil yolu inşa edilir. Orada inşa olunan körpü ölkəmizdə ən böyüyüdür, yəqin ki, biz onu gələn il istifadəyə verəcəyik. Ölkə ərazisində bağlantılar məsələləri də öz həllini tapır. Elə etməliyik ki, insanlarımız daha yaxşı yaşasın, iş yerləri olsun, dolanışıq yaxşı olsun".

Beləliklə, bu cür müasir kompleksin istifadəyə verilməsi ilk növbədə kənd təsərrüfatının mühüm sahələrindən olan heyvandarlığın inkişafına və ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfə verir. Layihənin icrası, həmçinin ümumilikdə regionun kənd təsərrüfatı potensialının artırılmasında böyük rol oynayır. Bu cür təsərrüfatlarda müasir texnologiyaların tətbiqi isə məhsuldarlığın artırılmasına, heyvanların sağlam şəraitdə saxlanmasına və istehsal xərclərinin azaldılmasına zəmin yaradır. Bu kompleksin fəaliyyətə başlaması, eyni zamanda, ölkəmizin ixrac potensialının artırılmasına müsbət təsir edəcək.

**Şamaxı Avropa liseyi - Heydər Əliyev Fondunun töhfəsi**

Qeyd edək ki, səfər çərçivəsində Prezident İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən inşa edilmiş Şamaxı Avropa liseyinin yeni binasının açılışında iştirak edib. Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına liseydə yaradılmış şərait barədə məlumat verib. Bildirilib ki, Avropa liseyinin yerləşdiyi əvvəlki bina 1937-ci ildə inşa edilmişdi. Təhsil müəssisəsinin 1987-ci ildə yenidən qurulan binası isə ötən müddətdə istifadəyə yararsız hala düşdüyündən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən yeni lisey binası inşa olunub.

Üç və dördmərtəbəli 7 korpusdan ibarət 1200 şagird yerlik bu təhsil müəssisəsi rayonun ən böyük məktəblərindəndir. Lisey zəruri mebel və avadanlıqla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə təchiz edilib. Burada 50-dən çox sinif otağı, fizika, kimya və biologiya laboratoriyaları, informatika və STEAM, hərbi təlim, tibb və əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, həmçinin açıq idman meydançası yaradılıb. Liseyin yeni binası Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində inşa edilib.

Göründüyü kimi, Azərbaycanda təhsil sahəsinin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Dövlət səviyyəsində bu istiqamətdə həyata keçirilən işlərə Heydər Əliyev Fondu da böyük töhfələr verir. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində indiyədək ölkəmizdə 500-dən çox məktəb istifadəyə verilib. Paytaxt Bakı ilə yanaşı, bölgələrdə bu cür layihələrin icrası ilk növbədə regionlarda yaşayan şagirdlərin yüksək səviyyədə təhsil almalarına, onların elmin sirlərinə daha dərindən yiyələnmələrinə hərtərəfli şərait yaradır. Bu, eyni zamanda, ölkəmizdə ümumilikdə təhsil sahəsinin inkişafını əyani şəkildə göstərir.

***Nardar BAYRAMLI***

# MDB regionunda ilk yeni enerji modeli

## Batareya Enerji Saxlanc Mərkəzinin yaradılması ölkəmizin enerji sisteminin çevik və dayanıqlığını təmin edəcək

Məlum olduğu kimi Prezident İlham Əliyev martın 25-də "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzinin açılışını edib. Yeni mərkəz ölkəmizin enerji güclərinin artmasını təmin edən və dayanıqlı resurs mənbələrindən biri hesab edilə bilər. Belə ki, gücü 500 MVt/saat olan böyük enerji saxlanc mərkəzi MDB regionunda ilk enerji infrastrukturu olmaqla, strateji sektorların enerji ehtiyacları üçün davamlı və fasiləsiz enerji təmin edəcək. 50 akkumulyator batareya və 13 invertor konteynerindən ibarət Mərkəzin enerji idarəetmə sistemi isə ən müasir və ağıllı texnologiyalara əsaslanır. Belə ki, ABŞ-nin "TETRA Tech" və Türkiyənin "EPRA" şirkətlərinin təmsil olunduğu bu layihə bərpaolunan enerji mənbələrinin təhlükəsiz şəkildə batareya sistemlərində saxlanması və paylanmasını təmin edəcək unikal model deməkdir.

Ümumiyyətlə, Azərbaycanda müasir eneji siyasəti alternativ resursların istehsalı və emalı ilə yanaşı, tədarük olunan enerjinin saxlanma bloklarında cəmləşməsidir. Batareya Enerji Saxlanc Mərkəzi bərpaolunan güclərin əsas resurs rezervuarları hesab edilir. Ən çox da günəşli saatlarda istehsal olunan enerji burada toplanır və pik saatlarda - enerjiyə tələbat artan zaman avtomatik olaraq şəbəkəyə verilir. Bir sözlə, bu sistemlər enerjini yığıb saxlayır, lazım gəldikdə isə onu istifadəyə yönəldir. Bu mərkzələr fiberoptik data mərkəzlərinin, genişzolaqlı internet bazalarının da əsas resurs mənbəyi sayılır. Yeri gəlmişkən, son 7 ildə 4700 kilometr fiber-optik kabel infrastrukturu yaradılıb, 550-dən çox enerji obyektini əhatə edən mərkəzi SCADA sistemi qurulub. Bu möhkəm arxitektura Azərbaycanın bölgədə Data mərkəzinə çevrilmək hədəflərinin də uğurla reallaşmasını təmin edəcək.









Batareya Saxlanc Sistemlərinin yaradılması enerji sistemin dayanıqlığının yüksəldilməsi, tezliyin stabilliyi, aktiv güc çatışmazlığının kompensasiyası, pik yüklərin qarşılanması, Günəşin batma saatlarında yük qrafikinin hamarlanması, qəza zamanı enerjisistemin sıfırdan bərpası baxımından olduqca əhəmiyyətlidir. Mərkəzin ən mühüm üstünlüyü isə daha çox bərpaolunan enerji güclərinə əsaslanmasıdır. Saxlanc mərkəzi günəş və külək stansiyalarının istehsal etdiyi enerjinin dəyişkənliyini hamarlayır, şəbəkədə gərginlik və tezlik sabitliyini təmin edir, enerji istehlakının yüksək olduğu pik saatlarda yığılmış enerjini şəbəkəyə verərək çatışmazlığı kompensasiya edir.

## 2030-cu ilin hədəfi - 30 faizlik "yaşıl enerji" istehsalı

Strateji Plana əsasən, ölkəmizdə 2028-ci ildə ümumilikdə 2100 MVt-dan çox "yaşıl enerji"nin batareya saxlama şəbəkələrinə inteqrasiyası nəzərdə tutulur. Bütün bunlar nəzərə alınaraq Azərbaycanda tikilən 2 GVt bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasını dayanıqlı və təhlükəsiz şəkildə həyata keçirmək, Bakının, o cümlədən Ələt Azad İqtisadi Zonasının enerji təchizatında yaşıl enerji payını yüksəltmək, 500/330 kV-luq "Nəvahi Yaşıl Enerji" qovşağını ölkə enerjisistemi ilə birbaşa tam əlaqələndirməklə onu əsas qovşaq yarımstansiyalarından birinə çevirmək üçün icra edilən "AZURE" layi həsi çərçivəsində işlərin əsas mərhələsi artıq yekunlaşıb.

Bütün bunlara nail olmaq üçün sözsüz ki, "yaşıl enerji" istehsalının da artımının davamlı təmin olunması vacibdir. Qiymətləndirmələrə əsasən, ölkəmizin quruda 135 QVt, dənizdə 157 QVt proqnozlaşdırılır.Təkcə, Qarabağ və Şərqi Zəngəzur bölgəsində hidroenerji, külək və günəş enerjisi, termal su mənbələrinin gücü 7200 MVt-dan artıq qiymətləndirilir. Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır. Hidroenerji ehtiyatlarına görə Tərtərçay, Həkəri çayı və bu çayların qolları əsas resurs mənbələri hesab olunur. İndiyə qədər bu ərazilərdə 10 ədəd kiçik su elektrik stansiyası inşa edilərək istifadəyə verilib, digər hidrogen infrastrukturlarının yaradılması işləri davam etdirilir. Ümumilikdə, 2 il ərzində Qarabağ və Şərqi Zəngəzurda 12 yerdə ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal edəcək su elektrik stansiyalarının tikintisinin başa çatdırılması nəzərdə tutulub. Bu isə bu bölgədə bərpa olunan təmiz enerjinin gücünün 1 QVt-ı ötməsinə səbəb olacaq. Hökumətin ssenarilərinə əsasən, 2030-cu ilə qədər elektrik enerjisində bərpaolunan enerjinin payının 30 faizə çatdırılmalıdır. Proqnozlar isə yaxın 5-6 ildə bərpa olunan enerji sitehsalının təxminən 5 milyard Kvt-st-a çatacağını fərz edir ki, bu da cəmi enerji hasilatının təxminən 34 faizi deməkdir. Yəni, Azərbaycan daha optipist ssenari üzrə "yaşıl enerji" gücünü artırmaqla bölgədə yeni enerji arxitekturasını da möhkəmləndirir.

## Xarici investorların "yaşıl sərmayələri"

Azərbaycan hökuməti "yaşıl enerji" sektorunda istehsalın artırılması üçün beynəlxalq koalisiya ilə sıx əməkdaşlıq qurub və son 2 ildə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın "bp", Avstraliyanın "Fortescue Future Industries", Yaponiyanın "TEPSCO", İtaliyanın "Maire Tecnimont", Çinin "China Gezhouba Group Overseas Investment", Fransanın "Total Energies" və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalanıb. Ümumilikdə, Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə "yaşıl enerji" sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb. Bundan başqa, Azərbaycanda Dünya Bankı (DB) , Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) , Asiya İnkişaf Bankı (AİB) kimi beynəlxalq maliyyə təşkilatlarının dəstəyi ilə layihələr həyata keçirilir. AYİB 2027-ci ilədək 8 külək və günəş elektrik stansiyasının inşasına kreditlər ayıracaq. 2 ay əvvəl Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti ilə maliyyə tutumu 1 milyard dollar olan müqavilələrin imzalanması isə "yaşıl enerji" hərəkatında yeni dalğanın başlanğıcı sayıla bilər. Bu, yeni enerji sərmayələrinin açar sazişi kimi digər çoxhəcmli investisiyalar üçün əsaslı zəmin deməkdir. Həmin sərmayə proqramının davamı kimi digər potensial investorlarla daha iritutumlu "yaşıl sərmayələr"in qoyuluşuna dair ilkin razılaşmalar da əldə edilib. Məsələn, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti qarşıdakı illərdə ölkəmizin yaşıl güclərinə 5 milyard dollara yaxın investisiya yatırmaq niyyətini bəyan edib.

Bu layihələrin icrası Azərbaycanda "yaşıl enerji" istehsalı və emalının artması fonunda batareya enerji şəbəkələrinin həm güc bazasının, həm də idarəetmə sisteminin də modernləşməsinə səbəb olacaq. Bu layihələrin tətbiqi Azərbaycanın enerji müstəqilliyini möhkəmləndirməklə yanaşı, həm də enerji sistemimizin qonşu ölkənin sinxron zonası ilə paralel və ada rejimlərində etibarlı işləməsini təmin edəcək.

Beləliklə, Batareya Enerji Saxlanc Mərkəzinin yaradılması Azərbaycanın enerji sisteminin daha müasir, çevik və dayanıqlığını təmin edəcək. Regionda bərpaolunan enerji potensialı ilə zəngin olan ölkəmizin yeni enerji modelini qurmaqla, həm də Cənubi Qafqazın data ünvanı kimi mövqeyini də möhkəmləndirəcək.

***E.CƏFƏRLİ***

# Vətən müharibəsinə 4 il qalırdı...

## 2016-cı il Aprel döyüşlərindən 10 il ötür

Müstəqilliyini əldə edən gündən işğala, təcavüzə məruz qalan Azərbaycan heç bir zaman bununla barışmayacağını elan etmişdi. Uzun və keşməkeşli bir yol keçən müasir tariximizin ən ağrılı məqamı sayılan bu illər ərzində Bakı beynəlxalq hüququn bərpası, ədalətin təmini üçün çox səy göstərdi - biz, məsələnin qansız-qadasız, sülh və danışıqlar yolu ilə həllinə üstünlük verirdik. Amma qarşı tərəfin qeyri-adekvat davranışı, sülhə, konstruktizmə deyil, terrora, işğala və təhdidə əl atması bizim də səbrimizi daşırtdı. Bu mənada, 2016-cı ilin aprelində cəbhə xəttində baş verən hadisələr regionun təhlükəsizlik mühitində mühüm dönüş nöqtəsi kimi qiymətləndirilir. Qısa müddət ərzində intensivləşən hərbi əməliyyatlar uzun illər davam edən nisbi sabitliyin nə qədər kövrək olduğunu üzə çıxardı və mövcud status-kvonun davamlı olmadığını göstərdi. Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum tədbirləri yalnız taktiki nəticələrlə məhdudlaşmadı, eyni zamanda tərəflər arasındakı güc balansına və münaqişənin gələcək dinamikasına ciddi təsir göstərdi.

Aprel döyüşləri həm də siyasi və hərbi strategiyaların yenidən nəzərdən keçirilməsinə səbəb oldu. Azərbaycan üçün bu hadisələr ərazi bütövlüyünün bərpası istiqamətində real imkanların mövcudluğunu nümayiş etdirən praktik təcrübə idi. Eyni zamanda, baş verənlər beynəlxalq vasitəçilik mexanizmlərinin effektivliyi, regional aktorların mövqeyi və təhlükəsizlik arxitekturasının dayanıqlılığı ilə bağlı sualları yenidən gündəmə gətirdi. Bu baxımdan, 2016-cı ilin aprel döyüşləri təkcə lokal hərbi toqquşma deyil, daha geniş geosiyasi proseslərin təzahürü kimi də təhlil olunmalıdır.

### Qələbənin zəmini - Aprel döyüşləri...

Bu gün qalib olan Azərbaycanın qalibiyyət yolu, zəfər yolu asan olmayıb - bu qələbəyə gedən yol keşməkeşli, ağır, hətta itkilər bahasına başa gəldi. Müharibədə qazanılan qələbənin zəmini isə vurğulandığı kimi, 2016-cı ilin aprelində hazırlandı. Bu gün şanlı Aprel döyüşlərindən 10 il ötür...

30 ilə yaxın davam etmiş erməni təcavüzü nəticəsində 20 faizə yaxın torpağımız işğal altında, bir milyona yaxın insanımız isə qaçqın və məcburi köçkün durumunda idi. Özünün güclü dövlətçilik təməllərini yaratmış Azərbaycan ötən onilliklər boyu məsələnin sülh yolu ilə həlli üçün səy göstərirdi - dəyişməyən yeganə amal isə bu gün tavrixə qovuşmuş "Qarabağ münaqişəsi"nin qeyd-şərtsiz olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsindəki həlli idi. Ermənistanın qeyri-konstruktiv mövqeyi prosesin ağrısız, döyüşsüz, qansız-qadasız yekunlamasına mane olurdu - İrəvan hakimiyyətinin ambissiyası onları reallıqlara qarşı kor etmişdi. Ermənistan Azərbaycanın iqtisadi gücünü, regionun lider statusunu qəbul edə bilmirdi. Bu mənada da Bakının səsləndirdiyi sülh mesajları İrəvan tərəfindən ciddi qəbul edilmirdi, hətta müəyyən bir zamanlarda bu dövlətin siyasi rəhbərliyi yeni işğal haqqında düşündüklərini də dolayısı ilə bildirirdilər. İşğal zonasında, təmas xəttində isə silahlı təxribatların ardı-arası kəsilmirdi. Mövqelərimiz davamlı olaraq atəşə tutulur, dinc insanlar öldürülür, kəndlərimiz silahlı təcavüzə məruz qalırdı. Belə olan halda isə Azərbaycan düşmənin silahlı təxribatlarının qarşısını almaq üçün aktiv fəaliyyətə başladı.



### 4 gün ərzində...

Azərbaycan Ordusu ilk dəfə 2016-cı il 1-4 aprel tarixində düşmənə qarşı geniş əməliyyat keçirdi. Aprel müharibəsi nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan və Tərtər rayonunun Madagiz (Suqovuşan) kəndləri istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Lələtəpə yüksəkliyinin və onun ətrafındakı strateji baxımdan mühüm əhəmiyyət daşıyan ərazilərin ələ keçirilməsi ilə Ordumuz geniş coğrafiyada düşmənin atəş məntəqələrinə nəzarət etmək imkanı qazandı. Qısa müddətdə bölmələrimiz tərəfindən azad edilən ərazilərdə yeni mühəndis-istehkam məntəqələri quruldu. Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı. Verilən məlumatlara görə, dörd günlük müharibədə 320-dən artıq düşmən hərbiçisi məhv edildi.

Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı. Eyni zamanda, hələ o zaman işğal altındakı Suqovuşan yaşayış məntəqəsində yerləşən erməni qərargahı və bir neçə hərbi hissə məhv edildi. Azərbaycan Ordusu Ağdərə-Suqovuşan, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı qazandı. Aprel döyüşləri nəticəsində azad etdiyimiz yüksəkliklər İkinci Qarabağ müharibəsində Ordumuzun uğurlu əməliyyatlar həyata keçirməsi üçün əlverişli imkanlar yaratdı.



### Mütləq qələbə üçün...

Bu günün rakursundan baxdıqda 2016-cı il aprel döyüşləri 2020-ci il Zəfərinə, 2023-cü il qələbəsinə aparan yol idi. Bu döyüşlər həm mənəvi, həm də strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyətə malik idi. Ermənistanın özü ilə bağlı yaratdığı mif darmadağın edildi - onların sabun köpüyünə bənzəyən "məğlubedilməz ordu" streotipi sıradan çıxarıldı. Aprel döyüşləri əsl reallığı ortaya qoydu. Artıq Ermənistanın siyasi-hərbi rəhbərliyinin yalanlarının işə yaramadığı ortaya çıxdı. Aprel döyüşləri bir daha sübut etdi ki, genişmiqyaslı müharibə başlayacağı təqdirdə Ermənistan ordusu Azərbaycanın Silahlı Qüvvələri qarşısında tab gətirə bilməyəcək.

Aprel döyüşləri həqiqətən də Böyük Qələbənin təməli oldu - bu fakt həm düşmənə, həm də dosta bir reallığı izah etdi: Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini təmin edləcək, düşmənə bir qarşı torpağı belə güzəştə getməyəcək. Azərbaycanın igid oğulları öz qanı, canı bahasına Vətənin bütövlüyünü qoruyacaq. Həmin günlərdə Azərbaycan xalqı bir nəfər kimi yalnız müharibəyə kökləndi - hər bir gənc əlinə silah alıb Vətən üçün savaşmağa hazır idi. Bütün dünya xalqımızın öz torpağına, yurduna bağlılığı qarşısında heyran qalmışdı. Əsgər və zabitlərimizin şücaəti isə ən yüksək qiymətə layiq idi. Prezident İlham Əliyevin 2016-cı il aprelin 19-da imzaladığı müvafiq sərəncamlarla Silahlı Qüvvələrimizin üç üzvü "Azərbaycanın Milli Qəhrəmanı" adına, 7 üzvü "Azərbaycan Bayrağı" ordeninə, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, 19 üzvü "Vətən uğrunda" medalına, 43 üzvü "İgidliyə görə" medalına, 45 üzvü "Hərbi xidmətlərə görə" medalına, layiq görülüb, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırılıb.

Beləliklə, bu gün 10-cu ildönümünü qeyd etdiyimiz Aprel döyüşləri Azərbaycanı qələbəyə aparan yolun başlanğıcını qoydu. Vətən müharibəsi ilə nəticələnən bu yolda isə Cünnüt döyüşlərini, Tovuz döyüşləri də baş verdi. Amma qələbə yürüşü artıq başlamışdı və 2016-cı ilin aprelindən başlanan yol 2023-cü ilin sentyabrında mütləq qələbə ilə sona çatdı...

***P.İSMAYILOV***

# Ölkəmiz müstəmləkəçiliyə qarşı...

## BMT-də "Transatlantik qul ticarətinə dair qətnamə"nin qəbul edilməsi dəstəklənir

**BMT Baş Assambleyası martın 25-də "Transatlantik qul ticarətinə dair qətnamə" qəbul edib. Təşkilatın Baş katibi Antonio Quterreş isə Beynəlxalq Köləlik və Transatlantik Kölə Ticarəti Qurbanlarının Anım Günü münasibətilə dünya ictimaiyyətinə müraciət ünvanlayıb.**

### Quterreş: İrqi fərqin yalan hekayəsini rədd etməyə çalışırıq

"Bu gün biz heyrətamiz bir cinayətin qurbanlarını - Afrikada ailələrindən və icmalarından oğurlanan milyonlarla insanın xatirəsini yad edirik. Onlar Atlantik okeanının o tayında insan alverinə məruz qalıblar. Onların əksəriyyəti Amerikada kölə vəziyyətində yaşayıb. Milyonlarla insan köləlikdə doğulub, əməyi üçün vəhşicəsinə istismar olunub və təməl insan haqlarından məhrum edilib. Biz onların dözümlülüyünü və açıq müqavimətlə müşayiət olunan cəsarətli hərəkətlərini hörmətlə anırıq"-, deyən Baş katib qeyd edib ki, bu qlobal nizam artıq 400 ildən çoxdur ki, hökm sürür və hətta indi də davam edir. Onun sözlərinə görə, bu hallar çirkli köləliklə formalaşan və zənginləşdirilmiş sistemlərdə və qurumlarda mövcuddur. Keçmiş ədalətsizliklərə əsaslanan sosial və iqtisadi bərabərsizliklər mədəniyyətimizə hopmuş və hamımıza təsir edən qərəzlərdə özünü göstərir. "Bu Beynəlxalq Köləlik və Transatlantik Kölə Ticarətinin Qurbanlarını Anma Günündə biz bu miraslarla üzləşməli oluruq. İrqi fərqin yalan hekayəsini və ağ irqin üstünlüyünün çirkin yalanını rədd etməyə çalışırıq. İrqçiliyi internetdə, mediada, məktəblərdə, iş yerlərində, siyasətdə və özümüzdə dağıtmaqla məşğuluq, həm də bunu həqiqət, ədalət və bərpa naminə çalışaraq həyata keçiririk. Bəzi hökumətlərin köləliyin nəticələrini aradan qaldırmaq üçün ilkin addımlarını alqışlayıram. Lakin daha çox üzv dövlət tərəfindən bundan da cəsarətli tədbirlər görülməlidir", -deyə BMT-nin Baş katibi vurğulayıb.

Quterreş Afrika ölkələrinin öz resurslarına sahibliyinə hörmət etmək öhdəlikləri də daxil olmaqla afrikalıların hüquqlarına daha diqqətlə yanaşmağa çağırıb: "Onların qlobal maliyyə arxitekturasında və BMT Təhlükəsizlik Şurasında bərabər iştirakını və təsirini təmin etmək üçün addımlar atılmalıdır. Birlikdə bütün insanların ləyaqətlə yaşadığı və inkişaf etdiyi bir dünyaya sadiq qalaq".

### Azərbaycan köləliklə mübarizə aparan xalqların yanındadır

Azərbaycan da hər zaman dünyada müstəmləkəçiliyə, köləliyə və neokolonialmzmə qarşı mübarizə aparır. Ölkəmiz bundan əziyyət çəkən xalqlara dəstəyini ifadə edir. Yəni, Azərbaycan sülhü tərənnüm edən bir dövlət kimi müstəmləkəçilikdən azad olmaq uğrunda mübarizəni həmişə müdafiə edib. Ölkəmiz Qoşulmama Hərəkatının sədri qismində müstəmləkəçiliyə qarşı mübarizədə qlobal platforma kimi yeni müstəmləkəçi və neokolonial təcrübələrə qarşı mübarizədə öz prinsipial mövqeyini ortaya qoyub. Ölkəmizin müstəmləkəçiliyə qarşı barışmaz münasibəti bundan sonra da birmənalı olaraq davam edəcək. Bakı Təşəbbüs Qrupunun (BTQ) yaradılması da bu məqsədə xidmət edir.

Yeri gəlmişkən, Bakı Təşəbbüs Qrupu BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş "Transatlantik qul ticarətinə dair qətnamə"yə dair açıqlama yayıb. BTQ BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş transatlantik qul ticarətini "bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayət" kimi tanıyan qətnaməni tam dəstəklədiyini bəyan edib. Müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda mübarizəsinə dəstək verməyi özünün əsas missiyalarından biri hesab edən Bakı Təşəbbüs Qrupu qəbul olunmuş bu qətnaməni Afrika mənşəli xalqlara qarşı yüz illərdir davam edən müstəmləkəçi ayrı-seçkiliyin və tarixi ədalətsizliyin aradan qaldırılması istiqamətində irəliyə doğru atılmış mühüm addım hesab edir.

Transatlantik qul ticarəti müstəmləkəçilik sisteminin ən amansız ifadəsi olmaqla milyonlarla insanı zorla kölə halına salıb, eyni zamanda bu xalqları iqtisadi, mədəni və sosial inkişafdan məhrum edib. Həmin ağır mirasın nəticələri bu gün də davam etməkdədir. BTQ reparasiya məsələsini maliyyə kompensasiyası olmaqla yanaşı, daha geniş ədalət anlayışının ayrılmaz hissəsi kimi dəyərləndirir, rəsmi üzrxahlıq, müstəmləkə dövründə talan edilmiş mədəni irs nümunələrinin geri qaytarılması, təhsil və ianə fondlarının yaradılması və bu cür cinayətlərin bir daha təkrarlanmamasına zəmanət verən beynəlxalq mexanizmlərin formalaşdırılması məsələsini dəfələrlə qaldırıb.

### BTQ beynəlxalq platformalarda afrikalıların hüquqlarını dəstəkləyir




Təşkilat Afrika mənşəli xalqların üzləşdiyi ədalətsizlikləri beynəlxalq platformalarda ardıcıl olaraq gündəmə gətirib və bu xüsusda 2024-cü ilin dekabrında və 2025-ci ilin aprelində BMT-nin Baş Qərargahında "Afrika əsilli xalqların hüquqları üzrə işçi qrupunun 35-ci sessiyası"nda və "Afrika əsilli şəxslərin Daimi Forumunun 4-cü sessiyası"nda fəal iştirak edib. BTQ həmin sessiyalarda neokolonializmin aradan qaldırılması və müstəmləkəçiliyə məruz qalmış ərazilərdə Afrika əsilli xalqların hüquqlarının müdafiəsi məsələlərini bir daha gündəmə gətirib.

Həmçinin, müstəmləkə altında hələ də yaşayan afrika mənşəli xalqlarla bağlı çoxsaylı hesabatlar dərc olunub, görülən işlər barədə hesabat BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına təqdim edilib. BMT Baş Katibinin hesabatında Bakı Təşəbbüs Qrupuna istinad edilməsi isə təşkilatın beynəlxalq etimada malik tərəfdaş kimi tanındığını və müstəmləkəçiliyə məruz qalan xalqların səsini dünyaya çatdırmaqda mühüm platforma rolunu oynadığını təsdiq edir.

Bakı Təşəbbüs Qrupu BMT-yə üzv dövlətləri bu qətnamədən irəli gələn müddəaları praktiki addımlarla həyata keçirməyə, reparasiya üzrə dialoqu dərinləşdirməyə və tarixi ədalətin bərqərar edilməsi istiqamətində konkret öhdəliklər götürməyə çağırıb.

***Nardar BAYRAMLI***



# Ən ali dəyərlərə uyğun davranış

## Dövlətçilik anlayışı - cəsarət, milli maraqlar, müstəqil siyasi kurs, qonşuluq prinsipləri, beynəlxalq hüquq, humanizm...

Yaxın Şərqdə baş verən gərginliklər təbii olaraq bütün regionun iqtisadi-siyasi həyatına sirayət etməkdədir. Son illərdə Azərbaycanın bölgənin gələcək iqtisadi planlaşdırmasını uğurla reallaşdırması, eləcə də konstruktiv əməkdaşlıq platformalarını genişləndirərək olduqca vacib bir konsolidasiyaya: Şərq-Qərb, Şimal-Cənub kontentləri üzrə birgə əlaqələrin uzlaşdırılmasına nail olması mühüm mənzərə yaratmışdı. Bakı Cənubi Qafqazda daimi sabitlik faktoru üzərindən hərəkət edərək yeni bir iqtisadi-ticari nizam formalaşdırmışdı.

Vurğulandığı kimi, Yaxın Şərqdə baş verənlər həm də bu kontekstdə bir çox suallar formalaşdırır. Azərbaycanın bölgənin aparıcı aktorlarından biri kimi problemin həllinə fokuslanıb - hələ müharibənin ilk günlərindən Bakı münaqişənin danışıqlar yolu ilə həllinin vacibliyini ortaya qoyaraq özünün vasitəçilik missiyasına belə təklif edib - bununla ölkəmiz həm də bir daha özünün müstəqil xarici siyasət kursuna sadiqliyini, münasibətlərdən asılı olmadığını, bərabərhüquqlu əməkdaşlığı prioritet seçdiyini sübut edir.

**Bakı səmimi qonşuluq münasibətlərinə hər zaman sadiqdir...**

Azərbaycanın sadiq və ləyaqətli qonşuluq münasibətlərinə hər zaman hörmətlə yanaşması sirr deyil - Bakı qonşuları ilə daim istər iqtisadi, istərsə də, siyasi münasibətlərini hörmət və qarşılıqlı səmimiyyət üzərində qurur. Düzdür, bu münasibətlər bəzən qarşı tərəflərin məsuliyyəti daxilində "dalğalansa" da, biz problemlərin dərinləşməməsi, beynəlxalq hüquq çərçivəsində həll edilməsi, qarşılıqlı milli maraqlar müstəvisində anlaşmanın əldə olunması üçün səy göstərir, çox zaman da müsbət yöndə və uğurlu nəticə əldə edirik. Bir daha qeyd olunmalıdır ki, burada əsas amil Bakının asılı olmayan, müstəqil siyasi xəttinin mövcudluğu, bizim bu xəttə sadiqliyimizdir.

**Həyata keçirilən rasional və praqmatik xarici siyasət kursu sayəsində bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı regionun, xüsusilə Cənubi Qafqazın hərbi-siyasi, iqtisadi, ekoloji təhlükəsizliyinin təmin olunmasına fundamental strateji töhfələr bəxş edən regional güc mərkəzi kimi dəyərləndirir. Bu isə ona dəlalət edir ki, Azərbaycan regionun təhlükəsizlik qarantı və inkişaf mənbəyi qismində çıxış edir**

Sadə bir misal - Yaxın Şərqdə döyüşən tərəflərə diqqət yetirdikdə ortaya müəyyən bir mənzərə çıxır.

- İran Azərbaycanın tarixi qonşusu, yaxın iqtisadi partnyorlarından biri, yüksəksəviyyəli əlaqələri olan dövlətdir;

- İsrail Azərbaycanın ən yaxın dost ölkələrindən biri, həm iqtisadi, həm də siyasi əlaqələrinin möhkəm olduğu dövlətdir;

- ABŞ Bakının yeni dövrdə əsas tərəfdaşlarından biri, "Strateji Tərəfdaşlıq Xartiyası" imzaladığı dövlətdir.

Hələ fevralın son günündən başlayaraq Azərbaycan yalnız problemin həllinə fokuslanıb - hansısa bir tərəfə dəstək məsələsi gündəmə gətirilməyib. İranın Ali dini rəhbərinin həyatını itirməsi münasibətilə Bakı özünün rəsmi başsağlığını rəsmi Tehrana çatdırıb. Prezident İlham Əliyev ilk dövlət başçısı oldu ki, İranın Azərbaycandakı səfirliyinə gedərək matəm kitabına öz ürək sözlərini yazıb və başsağlığı verib. Bir sözlə, Azərbaycan müstəqil, ləyaqətli, özünün siyasi xəttinə uyğun davranışlar sərgiləyir.

**Regionun lideri, humanizm nümunəsi...**

Həyata keçirilən rasional və praqmatik xarici siyasət kursu sayəsində bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı regionun, xüsusilə Cənubi Qafqazın hərbi-siyasi, iqtisadi, ekoloji təhlükəsizliyinin təmin olunmasına fundamental strateji töhfələr bəxş edən regional güc mərkəzi kimi dəyərləndirir. Bu isə ona dəlalət edir ki, Azərbaycan regionun təhlükəsizlik qarantı və inkişaf mənbəyi qismində çıxış edir. Vurğulandığı kimi, Azərbaycan az-az ölkələrdəndir ki, hərbi münaqişələrin sülh və danışıqlar yolu ilə tənzimlənməsini arzulayır, bitərəfliyini qoruyur, sabitliyin bərpası üçün səy göstərir və təhdid, təhlükə formalaşdırmır.

Ən əsası isə, Bakı bu münaqişdə mənəvi tərəfləri də unutmur - İrana humanitar yardımların göndərilməsi bunun bariz sübutudur. Azərbaycanın İran ətrafında baş verənlərə münasibəti neytrallıq və qonşuluq praqmatizmi, suverenliyə hörmət üzərində qurulub. İrana endirilən hava zərbələri fonunda Azərbaycan qonşu ölkəyə humanitar yardım göndərən ilk dövlət oldu. Bu, sadəcə, xeyriyyəçilik aktı yox, həm də dərindən düşünülüb-hesablanmış strateji addımdır. Regionun təhlükəsizliyində aktiv rol oynayan, sabitləşdirici faktor kimi qeyd edilən Bakı bu dəfə mənəvi qonşuluq prinsiplərinə də hörmətlə yanaşdığını hər kəsə nümayiş etdirdi. Açıq demək olar ki, Bakının indiki dövrdə bu davranışı həm də bir nümunə, cəsarət stimuluna çevrildi. İrana sonradan humanitar yardımlar məhz bu addımından sonra gerçəkləşdi. Bakı ikinci dəfə - martın 18-də Tehrana humanitar yardım karvanı göndədərək addımının simvolik jest mənası daşımadığını, "bir atımlıq barıt" olmadığını ortaya qoydu. Bu, Azərbaycanın humanitar missiyaya həssas yanaşmasının növbəti isbatıdır. Eləcə də Azərbaycan hər zaman bildirdiyi kimi, regional sabitlik faktoruna bir nömrəli fəaliyyət kimi yanaşır - paralel olaraq İrana münasibətdə də mövqeyimiz aydın, dəyişməz və qətidir: Prezident İlham Əliyev hər zaman bəyan edib ki, Azərbaycan-İran sərhədi dostluq sərhədidir. Dövlət başçısı bildirib ki, biz heç vaxt öz ərazimizdən qonşu ölkələrə, o cümlədən İrana qarşı təhdidlərin yaranmasına imkan verməyəcəyik. Rəsmi Bakı bütünlüklə öz davranışlarında bu tezisləri təsdiqləyib və ötən dövrdə nəinki İran, digər region dövlətinə qarşı da heç bir təhdid və ya təhlükə formalaşdırılmayıb.

**Bakı ən çətin zamanlarda belə, ən kritik dövrlərdə belə özünün təmkinini qoruyur, situasiyanı realist dəyərləndirməklə yanaşı, həm də dəyərlər toplusunu yaddan çıxarmır. Bizim üçün dövlətçilik anlayışı cəsarət, milli maraqlar, müstəqil siyasi kurs, qonşuluq prinsipləri, beynəlxalq hüquq, humanizm kimi ali dəyərlərə söykənir**

**"Mövsümi qonşuluq" - İrəvan nədən qorxur?**

Dünyada yeni iqtisadi nizam formalaşdığı kimi, siyasi münasibətlər sistemində də mühüm korrektələrin şahidi oluruq. İllərlə müstəqil siyasi xəttə malik olmayan dövlətlər bu gün "çətirini" dəyişir. Və ya "dost" adlandırdıqları ölkələri çətin vəziyyətdə qoyub yan qaçır. Bunun da misalı uzaqda deyil - Ermənistan illərdir ki, İranı özünün müttəfiqi adlandırır, dostu çağırır. Amma vəziyyət bir az bərkə düşən kimi İrəvan burada da "rəngini" dəyişir. Diqqət yetirsək, müharibə başlanan dövrdən etibarən Ermənistan İranla əlaqələr barədə hər hansı bir rəsmi açıqlama yaymayıb. Hətta göndərilən humanitar yardımla bağlı informasiyanın da ciddi-cəhdlə qorunduğunun şahidi oluruq. Sanki Ermənistanın siyasi rəhbərliyi bu humanitar yardımı göndərməklə pi sbir iş görmüş kimi xəbəri gizlətməyə çalışır. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ölkəsinin İrana yardım göndərdiyini ağızucu deyir - ayrı vaxt olsa, ermənilər bunu "İran-Ermənistan dostluğunun simvolu" halına gətirməmiş dincəlməzdilər. Bu da aydın səbəblərə söykənir:

- Ermənistan Qərbin ona "çəp-çəp" baxacağından çəkinir;

- İrana humanitar yardım Ermənistanın özünün ianəsinin kəsilməsi ilə nəticələnə bilər;

- Qəzəbə gəlmək istəmir:

- Nəhayət, qorxur. Bəli, açıq aşkar qorxur.

Bütün bu sadalananlar isə bir dövlətin siyasi iradəsinin zəifliyindən və beynəlxalq mərkəzlərdən asılı olmağından xəbər verir. Halbuki elə bir dövr vardı İran-Azərbaycan münasibətlərində bir çox səbəblərdən soyuqluq yaşanırdı. Həmin dövrdə Ermənistanın siyasi rəhbərliyi özlərinin demək olar ki, bütün "nitqlərində" İranın Ermənistandakı keçmiş səfiri Mehdi Sübhaniyə "istinad" edirdilər. Amma nə bu ölkənin baş naziri, nə də prezidenti Ali Xameneinin vəfatı ilə bağlı İranın Ermənistandakı səfirliyinin yaxınına belə hərlənmədi. Uzan illər Ermənistana "ümid yolu" olan, nəfəsliek olan İrana "təşəkkür" belə edildi.

**Bakının sülh gündəliyi...**

Bütün bu məntiq isə bir reallığı ortaya çıxarır - dövlətçilik ənənəsi, dövlətçilik anlayışı, qavrayışı və davranışı tam fəqlidir. Bakı ən çətin zamanlarda belə, ən kritik dövrlərdə belə özünün təmkinini qoruyur, situasiyanı realist dəyərləndirməklə yanaşı həm də dəyərlər toplusunu yaddan çıxarmır. Bizim üçün dövlətçilik anlayışı cəsarət, milli maraqlar, müstəqil siyasi kurs, qonşuluq prinsipləri, beynəlxalq hüquq, humanizm kimi ali dəyərlərə söykənir. Azərbaycan nəinki İrana qarşı davranışı, humanitar yardımlar göndərməsi, eləcə də öz ölkəsindən başqa dövlətlərin də humanitar yardım göstərməsi üçün dəhliz açması kimi bir addım atmaqla sübut edir ki:

- Azərbaycan çətin günün dostudur;

- Azərbaycan üçün gücün kölgəsində daldalanmaq kimi bir anlayış yoxdur;

- Azərbaycan öz tərəfdaşları ilə əlaqəsini və ya münasibətlərini bərabərhüquqlu müstəvidə qurur;

- Azərbaycan qonşuları ilə münasibətlərini üçüncü tərəflərin maraqları üzərindən rənzimləmir;

- Azərbaycan suveren bir dövlət olaraq qonşuluq prinsiplərini öz maraqları üzərində formalaşdırır.

Bu sadalanan faktorlar isə Azərbaycanın son illərdə reallaşdırdığı çoxtərəfli strategiyaların istiqamətlərini göstərir - beləliklə də ölkəmiz artıq təkcə regional lider deyil, qitələrarası stabillik sisteminin strateji mərkəzidir. Bu sabitlik missiyası isə ümumən bölgənin sabitliyinə hədəflənib - Bakı regionda hərbi-siyasi qarşıdurmaların aradan qalxması üçün səy göstərir, qlobal güclərin təsir mübarizəsini balanslaşdır. Nəticə etibarilə, Azərbaycan günümüzün Yaxın Şərq reallığı fonunda sabitliyin qurulmasını real olaraq arzulayan dövlətlərdəndir və bu istiqamətdə addımları ilə seçilir. Bu reallıq yalnız hazırkı dövr üçün deyil, qarşıdakı onilliklər üçün də Azərbaycanın siyasi çəkisini və qlobal mövqeyini müəyyən edəcək əsas faktorlardandır.

***Pərviz SADAYOĞLU***

# Azərbaycan ən təhlükəsiz ölkələrdəndir...

## Beynəlxalq hesabatlar da bunu təsdiqləyir

Yerləşdiyimiz regionun strateji əhəmiyyəti, geosiyasi atlası bir çox ştrixlərinə görə bizi digər bölgələrdən fərqləndirir. İqtisadi qovşaq olmamız, siyasi maraqların həm toqquşduğu, həm də uzlaşma məkanına çevrildiyi coğrafiya kimi müəyyənləşməyimiz bir çox mənalarda həm üstünlük yaradır, həm də diqqətli və ciddi yanaşma tələb edir. Nəzərə alınmalıdır ki, son illərdə yaşadığımız bölgədə gedən siyasi-hərbi proseslər mühüm reallıqlar formalaşdırıb. 2020-ci ildə Bakının iradəsi əsasında Cənubi Qafqazın təhlükəsizlik meyarlarının əsaslı şəkildə dəyişməsi isə qlobal diqqəti bu bölgəyə daha çox fokuslandırıb. Yeni reallıqların müəllifi olan Azərbaycanın Cənubi Qafqazın gələcək inkişafı ilə bağlı apardığı siyasi xətt birmənalı şəkildə əməkdaşlığa, sülhə və sabitliyə əsaslanır. Bu amillər kompleks şəkildə bölgənin yeni iqtisadi inkişaf mərhələsini yaradır - yaradılan yeni siyasi-iqtisadi konfiqurasiya özündə bölgə dövlətlərinin ümumi əməkdaşlıq maraqlarını ifadə edir. Ən əsası isə bu reallıqlar yeni ticari münasibətlər sisteminin xəritəsini formalaşdırır - Mərkəzi Asiya-Cənubi Qafqaz-Kiçik Asiya üzərindən keçən tranzit xətlərinin, iqtisadi imkanların diversifikasiyası yaxın perspektiv üçün mühüm proqnozlar yaradır. Perspektivi böyük olan bu əməkdaşlıq platformalarının inkişafı, iqtisadi əlaqələndirmənin daha dinamik formada həyata keçirilməsi, ticari münasibətləin intensivləşməsi birmənalı şəkildə mühüm şərtlərə əsaslanır - bu şərtlərdən ən ümdəsi isə təhlükəsizliyin təmin edilməsidir. Azərbaycan təhlükəsizliyin təmini məsələsində də qlobal reytinqlərdə ön sıralardadır.

### Qlobal reytinqdə ən təhlükəsiz ölkələr sırasında

Yeri gəlmişkən, "Global Terrorism Index 2026" (GTI) Hesabatı ilə dövlətlərin terror təhlükəsinə görə növbəti reytinq sıralanması təqdim edilib. Ərazisində terrorçuluq fəaliyyəti və terror təhlükəsi ən yüksək olan ölkələr arasında ilk sıralara - 1. Pakistan (8.574), 2. Burkina-Faso (8.324), 3. Niger (7.816) daxil edilib.

Qeyd olunan sıralamada Suriya (7.38) 6-cı, İsrail (6.79) 10-cu, Əfqanıstan (6.678) 11-ci, Hindistan (6.428) 13-cü, Rusiya (5.593) 17-ci, İran (5.477) 18-ci, ABŞ (4.521) 28-ci, Almaniya (4.447) 29-cu, Fransa (3.224) 35-ci, Türkiyə (3,212) 36-cı, Çin (1.311) 54-cü, İsveçrə (0.749) 67-ci, Birləşmiş Ərəb Əmirlikləri (0.749) 68-ci, Gürcüstan (0.506) 77-ci, Ermənistan (0.483) 81-ci yerdə qərarlaşıb.

Ötən ilin hesabatına əsasən terror təhlükəsi üzrə qeyd olunan sıralamada "0.233" indekslə 90-cı reytinq mövqeyində olan Azərbaycan 2026-cı ildə üç reytinq də yüksələrək "0.123" indekslə 93-cü yerdə qərarlaşmış, 1-dən 100-dək artan mümkün reytinq həddində dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi yüksək reytinqə sahib olub.

"Global Terrorism Index" (GTI) reytinq sıralanması indeksləri terror hadisələri, ölümlər, ağır nəticələr, girovlar, terrorçuluqla mübarizə, terrorçuluğun araşdırılması effektivliyi və digər çoxsaylı göstəricilər üzrə hesablamalara əsaslanır.

İqtisadiyyat və Sülh İnstitutu (Institute for Economics and Peace - İEP) tərəfindən dövri olaraq açıqlanan "Global Terrorism Index" hesabatları Birləşmiş Millətlər Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Dünya Bankı, digər beynəlxalq təşkilatlar və beynəlxalq akademik institutlar üçün istinad mənbəyi kimi çıxış edir. Hesabatlar eyni zamanda ölkələrə geniş iqtisadi infrastrukturda xarici investisiya yatırımları zamanı nəzərə alınan əsas mənbələrdən hesab olunur.

Beynəlxalq təşkilatların hesabatlarından göründüyü kimi, dini, siyasi, milli və digər zəminlərdə terror-təxribat təhdidlərinin yüksək olduğu kifayət qədər həssas və mürəkkəb geosiyasi məkanda yerləşsə də, uğurlu daxili və xarici dövlət siyasəti nəticəsində bərqərar olmuş inkişaf, əmin-amanlıq, o cümlədən terrorçuluğa qarşı mübarizə sahəsində təhlükəsizlik orqanları tərəfindən görülən effektiv işlər sayəsində Azərbaycan son illər dünyada çox yüksək daxili təhlükəsizlik reytinqinə sahib olub.

### Bakının təhdidlərə qarşı effektiv mübarizəsi...

Sirr deyil ki, müasir beynəlxalq münasibətlər sistemi klassik hərbi qarşıdurmalardan kənara çıxaraq müasir dövrdə daha mürəkkəb təhlükələr toplusu ilə üz-üzə qalıb - bu gün terror şəbəkələri, transmilli cinayətkarlıq, narkotik qaçaqmalçılığı, miqrasiya böhranları, kiberhücumlar və informasiya müharibələri dövlətlərin təhlükəsizlik müstəvisini ciddi sınağa çəkir. Mərkəzi Avropada baş verən konfrantasiyalar, Yaxın Şərqdə davam edən qarşıdurmalar, Afrika və Asiyada separatizm ocaqları beynəlxalq təhlükəsizlik sisteminin zəif bəndlərini açıq şəkildə üzə çıxarır. Bu mənzərə göstərir ki, hər bir ölkənin təhlükəsizliyi qlobal sabitlikdən birbaşa asılıdır.

Təhlükəsizlik məsələlərinin effektiv həllində vahid yanaşma, dövlətlərin həmrəyliyi və kəşfiyyat qurumlarının əməkdaşlığı xüsusi rol oynayır. Kəskinləşən ziddiyyətlərin hökm sürdüyü qlobal nizamda Azərbaycan təhlükəsizlik siyasətini yalnız öz milli maraqları çərçivəsində deyil, ümumbəşəri dəyərlər və beynəlxalq sabitlik naminə həyata keçirir. Bu isə ölkəmizi qlobal təhlükəsizlik arxitekturasının mühüm dayaqlarından birinə çevirir. Təsadüfi deyildi ki, Prezident İlham Əliyev XIII Qlobal Bakı Forumunun açılış mərasimində bildirmişdi ki, indi hər zamankından daha aydın görünür ki, təhlükəsizlik, sabitlik və təhlükəsiz yaşayış məsələləri istənilən ölkənin gündəliyində birinci yerdə olmalıdır: "Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. İnkişaf üçün illərlə, hətta onilliklərlə investisiya qoymuş ölkələr indi risklərlə üz-üzədir. Buna görə də təhlükəsizlik və sabitlik səylərimizi birləşdirməli olduğumuz əsas amil olmalıdır. Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub".

Bəli, xarici siyasətimizin strateji əsaslarından biri olan bu ideya, onun konstruktiv məzmunu hazırki real siyasi proseslərdə özünü doğruldur - beynəlxalq münasibətlərin katklizmlərlə dolu mürəkkəb mərhələsində Azərbaycan Cənubi Qafqazı strateji tərəfdaşlıq üçün cazibə mərkəzinə çevirir, bütün ölkələrin təhlükəsizlik reflekslərini bölgəyə yönləndirir. Azərbaycan Şərq ilə Qərbin həm sivilizasiyalararası, həm iqtisadi əməkdaşlıq, həm də siyasi tərəfdaşlıq maraqlarını bizim coğrafiyada cəmləyir. Terrorizmə qarşı mübarizədə mühüm qətiyyət nümayiş etdirən Azərbaycan qeyri-adekvat halların istisna olunması üçün səylərini səfərbər edir - təhdid və təhlükələrə qarşı koordinasiyalı fəaliyyət təşkil edir, təşlükəsizliyi təmini üçün bütün gücləri birləşdirir.




### Qlobal təhlükəsizliyin təmininə töhfə

Təəssüfləndirici haldır ki, qlobal mühitdə təhlükəsizliyə qarşı yaranan təhdidlər günü-gündən artmaqdadır. Dünya son illərdə geosiyasi ziddiyyətlərin daha da kəskinləşdiyi, yeni hərbi-siyasi gündəmlərin ortaya çıxdığı, beynəlxalq münasibətlər sistemində gərginliyin artdığı bir mərhələdən keçir. Müharibələr, terrorizm, hibrid təhdidlər və kiber hücumlar beynəlxalq təhlükəsizliyi zəiflədən amillər kimi ön plana çıxır. Belə bir mühitdə təhlükəsizlik sisteminin qorunub saxlanılması, yeni çağırışlara adekvat mexanizmlərin formalaşdırılması və qlobal həmrəyliyin təmin olunması bəşəriyyətin qarşısında duran əsas vəzifələrdən biridir.

Azərbaycan da qlobal sülhə və təhlükəsizliyə əsas töhfə verən dövlətlərdən biri kimi, son illərdə həm regional, həm də beynəlxalq müstəvidə çoxşaxəli siyasət yürüdür. Bu siyasətin əsas prioritetlərinə diqqət yetirsək:

- Regional sabitlik və sülhün təşviqi:2020-ci il Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar əsasında Azərbaycanın sülh gündəliyi regionda dayanıqlı təhlükəsizlik arxitekturasının qurulmasına xidmət edir;
- Enerji təhlükəsizliyinə töhfə: Azərbaycan Avropanın enerji xəritəsində əsas təchizatçılardan biri, Yaxın və Orta Şərqin enerji təchizatında yeni oyunçu kimi qlobal enerji təhlükəsizliyinin təminində mühüm rol oynayır. Bu, siyasi sabitliklə yanaşı, iqtisadi təhlükəsizliyə də zəmanət verir;
- Beynəlxalq əməkdaşlıq - NATO ilə tərəfdaşlıq, Qoşulmama Hərəkatındakı fəallıq, BMT çərçivəsində təşəbbüslər Azərbaycanın təhlükəsizlik siyasətini daha da gücləndirir. Azərbaycan illərdir ki, qlobal təhdidlərin aradan qaldırılması, terrorizmə qarşı mübarizə periodlarında ön planda çıxış edir.

Beləliklə, ölkəmizin beynəlxalq təhlükəsizlik amilindəki yeri və rolu bütün konturlarla üzə çıxır - bu, digər dövlətlər tərəfindən də təsdiqlənir və dəyərləndirilir. Bakı bütün digər sahələrdə olduğu kimi, təhlükəsizlik məsələsində də regional mərkəz funksiyasını üstlənir.

***P.İSMAYILOV***

---

# Neft və qazın bahalaşması dünya iqtisadiyyatını təhdid edir

İranın Hörmüz boğazını birdəfəlik bağlaması qlobal iqtisadiyyat, o cümlədən enerji bazarını təlatümlərlə qarşı-qarşıya qoyub. Tehran əvvəllər tankerlərin rüsum ödəməklə boğazdan keçməsinə icazə verəcəyini bəyan etsə də, ABŞ-ın bu ölkənin nüvə mərkəzlərini raket zərbəsinə tutmasından sonra fikrini dəyişərək gəmilərin boğazdan keçmək icazəsini birdəfəlik qapadıb. Gəmilərin okeanda izlənməsi xidməti göstərən "MarineTraffic"in məlumatına görə, hətta İranın yaxın müttəfiqi Çinin "Cosco Shipping" dövlət şirkətinə məxsus olan "CSCL Indian Ocean" və "CSCL Arctic Ocean" konteyner daşıyan gəmiləri də boğazdan buraxılmayıb.

SEPAH bəyanat yayaraq bildirib ki, Hörmüz boğazından okeana və əks istiqamətə hərəkət edən, İsrail və ABŞ-yə və onların müttəfiqlərinə məxsus bütün gəmilər zərbələrə məruz qalacaq.

Baş verən proseslər və qlobal xammal tədarüklərinin hərəkətində ən gərgin mərhələni başladıb ki, bu da dünya enerji bazarında neftin və qazın qiymətinin kəskin artmasına səbəb olub. Hətta ABŞ-nin İrana quru qoşunları göndərmək istəyi, Tailand bayrağı altında yük daşıyan gəminin Hörmüz boğazında İran tərəfindən raket zərbəsinə məruz qalaraq yanmasından sonra birjalarda neftin qiyməti son 2 gündə daha 6-7 faiz artıb. London birjasında "Brent" markalı neftin 1 barelinin qiyməti 115, WTI markalı 102,75, "Azeri Light" markalı neftin 1 barelinin qiyməti isə 128, 05 dollara yüksəlib.

Enerji fraqmentasiyaları dünya bazarında neftlə bərabər, qazın da qiymətinə təsir edib. Hazırda Avropada təbii qazın qiyməti kəskin artaraq 1000 kubmetr üçün 900 dollara yüksəlib. Qiymətlər son 3 ilin ən yüksək hədlərinə yaxınlaşır. Qeyd edək ki, Rusiya-Ukrayna müharibəsi başlayanda Avropada təbii qazın 1000 kubmetrinin qiyməti 1200 dollara kimi artmışdı. Cari ildə isə İranın Qətərin sıxılmış qaz istehsal edən zavodunu raket zərbəsi ilə vurması ixracı dayandırmış və qiymətlər sıçrayışla 850, indi isə 900 dollara kimi artıb.

Səudiyyə Ərəbistanının Şərq-Qərb neft boru kəmərini yenidən işə salması az da olsa qiymət sıçrayışlarının qarşısını alıb. Bu boru kəməri ölkənin şərq bölgəsində yerləşən yataqlardan nefti qərb bölgəsinə-Qırmızı dənizin sahilindəki Yanub limanındakı terminala daşınmasını təmin edir. Martın 29-da həmin kəmər vasitəsilə Səudiyyə Ərəbistanı tərəfindən 5 milyon barel neft nəql edilib ki, bunun da 2 milyonu daxili tələbata yönəldilib, qalan 3 milyonu isə dünya bazarına çıxarılıb. Tankerlər Yanub limanına yan alaraq neft daşıya bilirlər.




Ancaq əlavə tədarüklər də neftin bahalaşmasının qarşısını ala bilmir, qarşıdakı günlərdə enerji birjaları daha yüksək qiymətləri gözləyir. ABŞ-ın nüfuzlu "JP Morgan" maliyyə-bank strukturunun ehtimallarına görə, Hörmüz boğazının daha bir ay müddətinə blokadada qalması "Brent" markalı nefti 150 dollara qədər yüksəldə bilər. "Moody's" beynəlxalq reytinq agentliyi isə dünya bazarında əsas maye qaz (LNG) tədarükçüsü olan Qətərin enerji infrastrukturuna İran tərəfindən ciddi zərbə vurulmasının bu yanacağın görünməmiş dərəcədə yüksək qiymətə - 100 avroya çatmasını fərz edir.

**Qlobal iqtisadiyyat zəifləyir**

Neftin bahalaşması bütünlüklə qlobal iqtisadiyyatı da dərindən təhdid edir. İlk növbədə, neft və enerjinin bahalaşması sənaye və istehsal xərclərini artırır, iri şirkətlərin bazar xərclərinin yüksəlməsi fonunda alıcılıq portfelini aşağı salır. Eyni zamanda, neftin bahalaşması dünya maliyyə sisteminə kəskin təsir edərək bir sıra səhm və investisiya alətlərinin fond dəyərini ucuzlaşdırır. Nəticədə iri bank və investisiya şirkətlərinin, eləcə də suveren fondların maliyyə alətlərinin səhm və istiqrazları, digər qiymətli kağızları dəyərdən düşür. Mart ayının ikinci ongünlüyündə qlobal maliyyə bazarlarında həm iqtisadi göstəricilərin, həm də geosiyasi risklərin təsiri ilə formalaşan yüksək volatillik ABŞ, Almaniya, Avrozona və İngiltərədə makroiqtisadi göstəriciləri pisləşdirib. İnvestorlar mövcud şəriatdə monetar siyasət gözləntilərini yenidən qiymətləndirir ki, bu da dünya birjalarında ehtiyatlı ticarət mühitini formalaşdırır, bəzi investorlara və səhmdarlara aktiv fəaliyyətdən çəkinmək siqnalları verir. İnvestorlar riskli aktivlərdən qismən uzaqlaşmaq və vəsaitləri təhlükəsiz aktivlərə yönəlmək səmtinə üstünlük verməkdədir.

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) bu günlərdə yaydığı bəyanatda bildirilir ki, Yaxın Şərqdəki münaqişə enerji daşıyıcıları və gübrələrin qiymətinin artması, həmçinin ticarət və turizm axınlarının pozulması və maliyyələşdirmə şərtlərinin sərtləşməsi region dövlətlərinə müxtəlif istiqamətlərdə təsir edir. Avropada təbii qazın qiyməti martın 20-nə qədər iki dəfədən çox artıb, çünki Qətərdə mayeləşdirilmiş təbii qazın (LNG) istehsalı dayandırılıb və istehsal obyektlərinə ciddi ziyan dəyib. Hazırda neftin qiyməti 2011-2014-cü illərin səviyyəsindən və daha əvvəlki tarixi piklərdən əhəmiyyətli dərəcədə aşağı qalır, qazın qiymətləri isə 2022-ci ilin pik səviyyələrinə çatmasa da riskli qiymət zənbili formalaşdırır.

**Müharibə uzanarsa,
ərzaq çatışmazlığı yarana bilər**

AYİB hesab edir ki, neft və qazın yüksək qiymətləri ixracatçı ölkələr üçün faydalıdır, ixracatçıların, o cümlədən də Azərbaycanın mövqelərini gücləndirir. Bankın təxminlərinə görə, vəziyyətin bu cür davam etməsi yaxın günlərdə neftin qiymətinin 180 dollara çatmasına səbəb ola bilər. Bankın analitik icmasının fikrincə, mövcud situasiyalar karbohidrogen idxalçılarına mənfi təsir göstərir, enerji daşıyıcılarının ağır idxal təzyiqləri fonunda istehsal və emal proseslərində qırılmalar yaranır, neft, kimya və sənaye məhsulları və bu malların tədarük zəncirlərində ciddi pozuntular davam etməkdədir. Bu isə qlobal artımı ən azı 0,4 faiz bəndi azalda, inflyasiyanı isə 1,5 faiz bənddən çox artacaq. Neftin bir barelinin gündəlik orta 10 dollar qiymət artımı qlobal inflyasiyanın 0.4 faiz bəndi artması deməkdir. İndiyədək neft 40 dolardan çox artıb, daha 30 dollar artması inflyasiyanı daha 2 faiz artmasını təşviq edəcək.

Yeri gəlmişkən, Avropa Mərkəzi Bankı (AMB) Avrozonada inflyasiyanın mart ayında əvvəlki aya nisbətdə 2,2 faiz səviyyəsində yüksəldiyini bəyan edib. Bu, 2022-ci ildə Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra ən sürətli aylıq artım sayılır. Avropa Bankının sədri Kristin Laqard bildirib ki, qiymət indeksləri daha 2 faiz hədəf gözləntisini ötdüyü halda, AMB proseslərə reaksiya vermək məcburiyyətində qalacaq və uçot siyasətini sərtləşdirəcək.

Enerji daşıyıcılarının qiymətləri yüksək olaraq qalarsa, xammal və istehlak mallarının bahalaşması daha da yüksələcək. Xüsusilə də, aqrar-sənaye sektorunda əsas xammal olan gübrə qiymətlərinin artması bir qayda olaraq əsas ərzaq mallarının qiymətlərinin yüksəlməsinə səbəb olur. Dünyada istehlak olunan azotun 50 faizi, fosfor gübrəsinin xam maddəsi olan fosfatın 25 faizi, digər azotlu gübrə olan ammonium-nitratın xam maddəsi olan ammoniumun 30 faizi, kükürdün 45 faizi körfəz dövlətləri tərəfindən istehsal olunaraq Hörmüz Boğazı vasitəsilə dünya bazarlarına ixrac edilir. Məsələ ondadır ki, təkcə tədarük zəncirində qırılmalar deyil, hasilatın da azalması müşahidə olunur ki, bu da gübrələrin qiymətlərinin dünya bazarlarında 30-50 faiz bahalamasına səbəb olur. Qlobal ərzaq bazarı ilə bağlı digər ehtimallara görə, müharibə daha 3 aydan çox davam edərsə, ərzaq çatışmazlığı hiss oluna bilər.

**Azərbaycanın investisiya portfeli
üçün risklər**

Nəzərə alsaq ki, Azərbaycanın milli suveren təsisatı olan Dövlət Neft Fondu qlobal iqtisadi mühitdə və investisiya bazarlarında baş verən proseslərə uyğun olaraq öz investisiya siyasətini daim təkmilləşdirir, risklərin aşağı olması şərtilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirir. DNF məcmu aktivlərinin əhəmiyyətli hissəsini uğurlu investisiya siyasəti çərçivəsində qlobal bazarlarda müxtəlif maliyyə alətlərinə, o cümlədən, səhm, qızıl, daşınmaz əmlak və infrastruktur kimi müxtəlif sahələrə yönəldib. Son 5 ildə DNF-nin investisiya fəaliyyətindən dividentləri 22,7 milyard dollar təşkil edib. Bu müddətdə fondun aktivləri 29,9 milyard dollar və ya 70 faiz artaraq 43,6 milyard dollardan 73,5 milyard ABŞ dollara yüksəlib. Bu göstəricilər Fondun investisiya fəaliyyətinin rolunun əhəmiyyətli dərəcədə gücləndiyini və dayanıqlı dəyər yaradan əsas mənbələrdən birinə çevrildiyini nümayiş etdirir. Yəni, neftin baha qiymətindən daha çox qlobal investisiya alətlərinin sabitliyi DNF üçün daha sərfəlidir.

Bir sözlə, beynəlxalq iqtisadi institutların və analitik tədqiqat mərkəzlərinin qiymətləndirmələrinə görə, enerji qiymətlərinin bahalaşması bütün qlobal ticarətin iştirakçılarına, o cümlədən neft və qaz ixrac edən ölkələrin də iqtisadiyyatına, qiymət bazarlarına mənfi təsirlər göstərməklə, ümumilikdə, iqtisadi-sosial inkişaf planlarını ləngidə bilər.

***E.CƏFƏRLİ***

# Müharibə bitir, yoxsa?...

## Yaxın Şərqin gələcəyi üçün "planlar" və "şərtlər"...

Yaxın Şərqdə gedən döyüşlərin bir ayı geridə qaldı. Qarşılıqlı hava hücumları nəticəsində bölgədə olduqca ağır və çətin vəziyyət yaşanır. Siyasi şərhçilər isə sülhün əldə edilməsini hazırda mümkünsüz sayır - buna səbəb tərəflərin hansısa ortaq məxrəcdə razılığa gələ bilməməsi səbəbdir. Bir neçə gün öncə "Bloomberg" mənbələrə istinadən xəbər vermişdi ki, ABŞ İrana müharibəni bitirmək üçün 15 maddəlik plan təqdim edib. Bunlardan 12-si Amerikanın tələbləri, üçü isə Tehranın bu tələbləri yerinə yetirəcəyi halda əldə edəcəkləri idi.

**15 şərtlik plan...**

Sözügedən planın təqdim olunmasında Pakistan vasitəçi kimi çıxış edib. Verilən xəbərlərə görə, plan İran rəhbərliyinə təqdim olunub. Müddəalara gəldikdə isə:

1. İrana qarşı bütün sanksiyaların ləğvi.
2. ABŞ-ın mülki nüvə layihəsinin (elektrik enerjisi istehsalı) inkişafına yardım göstərməsi.
3. Sanksiyaların yenidən tətbiqi təhlükəsinin aradan qaldırılması.
4. İranın nüvə proqramının müəyyən çərçivədə dondurulması.
5. Zənginləşdirilmiş uranın saxlanması, lakin nəzarət və razılaşdırılmış limitlər daxilində.
6. Raket proqramının daha sonrakı mərhələdə say və mənzil məhdudiyyətləri ilə müzakirəsi.
7. Nüvə proqramının yalnız mülki və müdafiə məqsədləri ilə məhdudlaşdırılması.
8. Mövcud nüvə imkanlarının inkişafının dayandırılması.
9. Uranın zənginləşdirilməsi imkanlarının genişləndirilməsinə qadağa.
10. İran ərazisində silah səviyyəli nüvə materialının istehsalına qadağa.
11. Bütün zənginləşdirilmiş materialın razılaşdırılmış qrafiklə MAQATE-yə təhvil verilməsi.
12. Natanz, İsfahan və Fordo obyektlərinin fəaliyyətinin dayandırılması (sıradan çıxarılması).
13. Beynəlxalq monitorinq və yoxlama mexanizmlərinin tətbiqi.
14. Planın mərhələli icrası və öhdəliklərə uyğun şəkildə həyata keçirilməsi.
15. Tərəflər arasında əlavə regional və təhlükəsizlik razılaşmalarının əldə olunması.

Göründüyü kimi, planın ana xətti ABŞ-ın hələ müharibə başlamamışdan öncə Tehrana qarşı irəli sürdüyü 5-li şərti özündə əks etdirməkdədir. Aylar öncə Omanda və Cenevrədə baş tutan görüşlərdə də bildirilirdi ki, əsas müzakirə predmetləri məhz bu kimi şərtləri özündə əhatə edir - düzdür. Şərtlərin sayı 15 olmasa da, mahiyyət eyni idi. İndiki halda isə açıq kontekstdə yalnız uranın zənginləşdirilməsi. Nüvə proqramı və raketlərlə bağlı məsələyə işarə olunur. Ötən dövrdə daha açıq dillə ifadə olunan "proksi qüvvələr"ə yardım məsələsi isə 15-ci maddədə "Tərəflər arasında əlavə regional və təhlükəsizlik razılaşmalarının əldə olunması" kimi tövsif olunur. Bir sözlə, irəli sürülən şərtlərdə dəyişən mahiyyət yoxdur. Bu mənada, hələ müharibədən öncəki daha az şərtləri qəbul etməyən Tehranın indiki halda bu şərtlər daxilində sülhə gəlməsi inandırıcı sayılmır. Bunu Qərb politoloqları da təsdiqləyir. Qərb mediası ABŞ-ın şərtlərinin müharibənin ikinci fazaya qədəm qoyması üçün zəmin adlandırır.

**İranın 5 şərti...**

Beləliklə, İranın 15 maddəlik plana "yox" deməsi gözlənildiyi kimi uzun çəkmədi - Tehran münaqişəni bitirməyin yalnız özünün müəyyən etdiyi şərtlər daxilində və müddət ərzində mümkün olduğunu bildirir. KİV-in İranın yüksək vəzifəli siyasi və təhlükəsizlik rəsmisinə istinadən verdiyi xəbərə görə, İran ABŞ Prezidenti Donald Trampa müharibənin bitmə vaxtını diktə etməsinə icazə verməyəcəyini vurğulayıb:

"İran müharibəni zəruri hesab etdiyi və şərtləri yerinə yetirildiyi zaman bitirəcək". Onun sözlərinə görə, Vaşinqton müxtəlif diplomatik kanallar vasitəsilə danışıqlar aparmağa çalışsa da, Tehran bu addımlara inanmır: "Belə ki, 2025-ci ilin yaz və qış aylarında keçirilən əvvəlki iki danışıqlarda ABŞ-ın konstruktiv dialoq aparmaq üçün heç bir niyyəti olmayıb və sonradan İrana qarşı hərbi müdaxilə edib. Buna görə də Tehran dost regional vasitəçilərlə təqdim edilən son təklifi gərginliyi artırmaq cəhdi kimi qiymətləndirib və mənfi cavab verib".

Eyni zamanda, adı açıqlanmayan rəsmi şəxs İranın hərbi əməliyyatları dayandırmağa razı olacağı 5 konkret şərti açıqlayıb:

1. ABŞ və İsrail tərəfindən təcavüz və qətlin tamamilə dayandırılması;
2. İrana yenidən hərbi təcavüz edilməməsini təmin etmək üçün konkret mexanizmlərin yaradılması;
3. Müharibə zərərlərinin və təzminatlarının ödənilməsinin təmin edilməsi və aydın şəkildə müəyyən edilməsi;
4. Bölgədəki bütün cəbhələrdə və bütün müqavimət qrupları üçün müharibənin dayandırılması;
5. İranın Hörmüz boğazı üzərində nəzarəti həyata keçirməklə bağlı suveren hüququnun beynəlxalq səviyyədə tanınması və təminatları.

"İran vasitəçilərə atəşkəsin yalnız bütün şərtlər qəbul edildikdə mümkün olduğunu bildirib. O vaxta qədər heç bir danışıq aparılmayacaq", - deyə rəsmi şəxs vurğulayıb. O əlavə edib ki, İranın müdafiə hərəkətləri bütün göstərilən şərtlər yerinə yetirilənə qədər davam edəcək: "Müharibə Tramp deyil, İran qərar verəndə bitəcək".

**Cəmisi 1 həftə sonra...**

Ağ Evin mətbuat katibi Kerolin Levitt isə jurnalistlər üçün keçirilən müntəzəm brifinqdə bildirib ki, ABŞ administrasiyası İranla 6 aprel tarixinədək razılaşma əldə etməyi planlaşdırır və bu məqsədlə İranın enerji infrastrukturuna zərbələri müvəqqəti dayandırıb. Onun sözlərinə görə, ABŞ prezidenti Donald Tramp daha əvvəl "Truth Social" platformasında paylaşım edərək İranın enerji infrastrukturuna zərbələrin 10 gün müddətinə, 6 aprelədək dayandırıldığını bildirib. Livittdən ABŞ-nin bu müddət ərzində nəyə nail olmaq istədiyi soruşulduqda o qeyd edib ki, Tramp razılaşma əldə etmək istəyir.

"Vaxt getdikcə azalır, cəmi bir neçə gün qalıb. Bu 10 günlük müddət başa çatdıqdan sonra nə baş verəcəyini görəcəyik", - deyə Ağ Evin sözçüsü əlavə edib.

Bloomberg agentliyinin məlumatına görə, ABŞ prezidenti Donald Tramp müxbirlərlə söhbətində Tehran ABŞ-ın müharibəyə son qoymaq üçün irəli sürdüyü 15 tələbin əksəriyyətini yerinə yetirdiyini bildirib. "Onlar bizimlə əksər məsələlərdə razılaşırlar. Biz daha bir neçə şey istəyəcəyik", - deyə bildirib. Tramp İranın hansı əlavə güzəştlərə getməyə hazır olduğunu isə açıqlamayıb.

Donald Tramp "New York Post" qəzetinə müsahibəsində Tehrandakı proseslərin yaxın günlərdə daha da aydınlaşacağını bildirib. Trampın sözlərinə görə, İran parlamentinin spikeri Qalibafın ABŞ-la əməkdaşlığa hazır olub-olmadığı tezliklə bəlli olacaq. ABŞ lideri bu barədə "təxminən bir həftəyə məlumat verəcəyəm" deyərək, Vaşinqtonun İran daxilində baş verənləri yaxından izlədiyini vurğulayıb.

**Müharibənin yeni "maliyyə mənbəyi"...**

Körfəz ölkələri isə hərbi əməliyyatların davamına çağırış edib. Belə ki, Səudiyyə Ərəbistanı və BƏƏ başda olmaqla bir neçə Fars körfəzi ölkəsi ABŞ-ı İrana qarşı hərbi əməliyyatları davam etdirməyə çağırır. Associated Press bu iddianı ABŞ, İsrail və Fars körfəzindən olan adları açıqlanmayan rəsmilərə istinadən irəli sürür. Agentliyin məlumatına görə, BƏƏ, Səudiyyə Ərəbistanı, Küveyt və Bəhreyn nümayəndələri İran rəhbərliyində və ya İranın əhval-ruhiyyəsində köklü dəyişiklik olana qədər ABŞ-İsrail hərbi əməliyyatını davam etdirmək istədiklərini gizli şəkildə bildiriblər. Bildirilir ki, Körfəz dövlətlərinin münaqişəyə fərqli münasibəti var: Səudiyyə Ərəbistanı və BƏƏ ən sərt mövqe tutur, Oman və Qətər isə diplomatik həlli dəstəkləyir.

Prezident Donald Tramp isə Yaxın Şərqdə artan gərginlik fonunda diqqətçəkən maliyyə təşəbbüsü ilə çıxış edib. Ağ Evin mətbuat katibi Karolayn Livitt Trampın ərəb ölkələrini İranla bağlı mümkün hərbi əməliyyatların xərclərinin ödənilməsinə cəlb etmək istədiyini açıqlayıb. Onun sözlərinə görə, bu yanaşma Vaşinqtonun bölgədə yükü təkbaşına daşımaq istəmədiyini göstərir.

Ağ Ev sözçüsü, eyni zamanda, bildirib ki, ABŞ İranın Hörmüz boğazı üzərindən gəmi keçidinə məhdudiyyət qoymaq planlarını dəstəkləmir. Vaşinqton yaxın günlərdə onlarla neft tankerinin bu strateji marşrutdan keçəcəyini gözləyir və vəziyyəti yaxından izləyir.

**Silah arsenalı azalır?**

Bu arada Yaxın Şərqdə gərginliyin artması fonunda Fars körfəzi ölkələrinin hava hücumundan müdafiə imkanları ciddi sınaq qarşısındadır. Bloomberg agentliyinin yaydığı məlumata görə, ABŞ və İsrailin İranla davam edən müharibəsi ərzində cəmi bir ayda ən azı 2400 ədəd HHM raketi istifadə olunub.

Məlumata əsasən, müharibədən əvvəl ABŞ və müttəfiqlərinin arsenalında təxminən 2800 ədəd Patriot PAC-3 və GEM-T tipli raket mövcud idi. Hazırda isə bu ehtiyatların böyük hissəsinin təkndiyi və sistemlərin kritik həddə çatdığı bildirilir.

Ekspertlər vurğulayır ki, əsas problem yalnız sürətli sərfiyyat deyil, həm də istehsalın məhdud olmasıdır. ABŞ-nin müdafiə sənayesi nəhəngi Lockheed Martin ildə təxminən 650 ədəd PAC-3 raketi istehsal edir ki, bu da mövcud döyüş tempini kompensasiya etmək üçün yetərli deyil.

Digər tərəfdən, ABŞ-nin silah prioritetləri də diqqət çəkir. Dövlət katibi Marko Rubio daha əvvəl açıqlamasında bildirib ki, hərbi zərurət yaranarsa, Ukrayna üçün nəzərdə tutulan silahlar Yaxın Şərqə yönləndirilə bilər. Lakin hələlik belə bir qərar verilməyib.

**P.İSMAYILOV**



# İrəvan ziyalılarından: Əkbər Rzayev



XX əsrin əvvəllərində İrəvanda fəaliyyət göstərmiş və burada Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin inkişafında xidmətləri olmuş ziyalılardan, görkəmli şəxsiyyətlərdən biri də Əkbər Rzayevdir. Xalqımızın bir çox şəxsiyyətlərinin həyatı, yaradıcılığı öyrənilmədiyi kimi onun da ictimai-siyasi və maarifçilik fəaliyyəti demək olar ki, öyrənilməmişdir. Mövcud dövrün ideologiyası bir çox ziyalılarımız kimi onun da ictimai, elmi, maarifçilik irsini araşdırmalardan kənarda saxlamışdır. Bu baxımdan Əkbər Rzayev və onun kimi şəxsiyyətlərin həyat və fəaliyyətinin öyrənilməsi ictimai fikir tariximizdə onların yerinin müəyyənləşdirilməsi vacib və aktualdır. Çünki ictimai-mədəni tariximizin çağdaş mərhələsi həm də özündən əvvəlki dövrlərdən bəhrələnərək inkişaf edir.

Əkbər Rzayevin ictimai-siyasi portretini bir məqalə ilə təsvir etmək qeyri-mümkündür. Bu gün arxiv materialları əlçatmaz olduğundan bu məqalədə yalnız onun ictimai-siyasi portretinin bəzi cizgilərini təsvir etməyə çalışmışıq.

Əkbər Rzayev 1898-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Sonrakı təhsilini İrəvandakı pansionda almışdır. O, ərəb dilini də mükəmməl öyrənmişdir. Pansion təhsilini başa vurduqdan sonra İrəvan oğlanlar gimnaziyasına daxil olmuş və oranı uğurla bitirmişdir. Gimnaziyada təhsil aldığı dövrdə "Könülsüz nikah" adlı pyes yazmışdır. Əsər İrəvanda həvəskar aktyorlar tərəfindən tamaşaya qoyulmuşdur. 1918-ci ildə ermənilərin Qərbi Azərbaycanda soydaşlarımıza qarşı törətdikləri total qırğınlar zamanı Əkbər müəllim də ailəsi ilə birlikdə Naxçıvana köçmüş və bir müddət burada yaşamışdır. O, burada da ictimai-siyasi fəaliyyətini davam etdirmişdir. 1921-ci il mart ayının 27-də Naxçıvanda yaradılmış Kommunist Gənclər İttifaqı Qəza Komitəsinin təşkilat bürosuna seçilmiş üç nəfərdən biri Əkbər Rzayev olmuşdur. Bir müddət Naxçıvanda qaldıqdan sonra 1922-ci ilin əvvəllərində yenidən öz doğma yurduna geri dönmüşdür.

O, Qərbi Azərbaycanda milli mədəniyyətimizin, maarifimizin inkişafında və formalaşmasında çox böyük rol oynamışdır. Əkbər Rzayev İrəvanda və azərbaycanlılar yaşayan bir sıra bölgələrdə maarif, mədəniyyət ocaqlarının yaradılmasının təşkilatçısı olmuşdur. Nadir istedada və dərin biliyə malik olan Əkbər Rzayev 1920-1930-cu illərdə azərbaycanlı əhali arasında çox böyük maarifçilik işləri aparmışdı. Əkbər Rzayev İrəvanda fəaliyyət göstərdiyi illər ərzində özünü istedadlı jurnalist kimi tanıdır. O, dövrünün ən mühüm və aktual mövzularını qələmə alaraq müxtəlif qəzet və jurnallarda dərc etdirmişdir. Əkbər Rzayevin inqilabdan əvvəl Bakıda və Tiflisdə nəşr olunan "Tuti", "İqdam", "İqbal", "Molla Nəsrəddin" və s. mətbuat orqanlarında xeyli sayda məqalələri çap olunmuşdur. Dövrün tanınmış ictimai-maarifçi xadimlərindən olan Əkbər Rzayev xalqımızın tarixinə, mədəniyyətinə yaxından bələd olduğu üçün maddi və mənəvi mədəniyyətimizin bir çox sahələri onun istər çap olunmuş məqalələrində, istərsə də əlyazmalarında bu və ya digər dərəcədə öz əksini tapmışdır. Gənc və tərəqqipərvər ziyalı öz fikirlərini, marifçilik ideyalarını, elmi baxışlarını məhz mətbuat vasitəsilə xalqa çatdırdı. Bütün bunlar ilk növbədə Əkbər Rzayevin xalqa sevgisindən, onun keçmişinin və müasir mədəni durumunu öyrənmək istəyindən, Qərbi Azərbaycandakı soydaşlarımızı maarifləndirmək yolu ilə yüksək tərəqqiyə çatdırmaq arzularından irəli gəlirdi. O, jurnalist, mədəniyyət işçisi, maarifçi, ictimai fəaliyyəti ilə yanaşı, həm də nadir istedadı ilə çoxlarını heyran qoyurdu. O, Azərbaycan dilinin təmizliyi uğrunda aparılan mübarizənin əsas ağırlığını, demək olar ki, öz çiyinlərində daşıyırdı. Əkbər Rzayev həm də Qərbi Azərbaycanda latın əlifbası hərəkatına öz töhfəsini vermiş ziyalılarımızdandır. Onun fəaliyyəti təkcə Qərbi Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə regionda maarifçilik, ana dili siyasəti və əlifba islahatlarının həyata keçirilməsində mühüm rol oynayıb.

Əkbər Rzayevin həyat yoldaşı Firəngiz xanım da ictimai işlərdə fəallıq göstərmiş, İrəvanda azərbaycanlı qadınlar klubunun təşkilində və mədəni quruculuq prosesində aktiv iştirak etmişdir.

1924-cü ildə İrəvanda Azərbaycan teatrının səhnəsində "Dəmirçi gavə", "Ölülər", "İblis", "Pəri cadu" və s. kimi məşhur pyeslər tamaşaya qoyulmuşdur ki, həmin pyeslərdə bir sıra rolları Əkbər Rzayev ifa etmişdir. Göründüyü kimi, İrəvanda Azərbaycan teatr sənətinin inkişafında da mühüm rol oynamışdır.

O, 1930-cu illərdə İrəvanda Azərbaycan teatrının siyasi-bədii şurasının sədri olmuşdur.

Əkbər Rzayev 1924-cü ildə İrəvanda yaradılmış Yeni Türk Əlifba Komitəsinin ən fəal büro üzvlərindən biri olub. Yeni əlifba islahatı, onun təbliği və tətbiqi ilə bağlı böyük fəaliyyət göstərmiş, bununla bağlı dövrü mətbuatda bir sıra məqalələri çap olunmuşdur. O, 1924-1925-ci illərdə Ermənistan Mərkəzi Komitəsinin nəzdində yaradılmış "Azsaylı xalqlar" şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1926-cı ildə Vedibasar Nahiyyəsi Firqə Komitəsinin katibi vəzifəsində işləmişdir.

"Zəngi" (1924), sonralar isə "Qızıl şəfəq" (1929) qəzeti adı ilə çıxan milli mətbuat orqanlarının səhifələrində onun xeyli sayda məqalələri dərc olunmuşdur ki, bunlar da milli maarifimiz, mədəniyyətimiz üçün olduqca böyük əhəmiyyət kəsb edir. Əkbər Rzayev qəzetlərin ən fəal müxbirlərindən biri olub. O 1937-ci ildə "Qızıl şəfəq", sonralar isə "Komminist" (Azərbaycan dilində) adı ilə nəşr olunan qəzetin məsul redaktoru olmuşdur. Onun fəaliyyətini təhlil edərkən Qərbi Azərbaycanda milli mətbuatın inkişafındakı əvəzsiz xidmətləri də aydın formada özünü göstərir.

1939-cu ildə Qərbi Azərbaycanın azərbaycanlı əhalisi arasında yeni əlifba islahatı həyata keçirmək üzrə Respublika Komitəsinin sədri olmuşdur.

O, II Dünya müharibəsi illərində Moskvada "İnostrannaya literatura" nəşriyyatında "Türk ədəbiyyatı" redaksiyasının müdiri olmuşdur. Həyatının demək olar ki, böyük bir qismini İrəvanda yaşamış və burada Azərbaycan ədəbi-mədəni, ictimai mühitinin zənginləşməsinə önəmli töhfələr vermiş Əkbər Rzayev bu gün də böyük xidmətləri ilə yadda qalmışdır. Onun oğlu, sənətşünaslıq elmləri doktoru Sabir Rzayev incəsənət sahəsində tanınmış görkəmli ziyalılardan biri olmuşdur. İctimai-mədəni fikir tariximizdə silinməz iz qoymuş Əkbər Rzayev 1957-ci ildə vəfat etmişdir.



***Cəlal Zəngi,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN



# Kitab dükanımız

## Az qala dəftərxana dükanına dönüb. İçində də oyuncaqları...



*Məqsəd Nur*

Əgər bu oyuncaqlar kitaba, mütaliəyə, intellektə sövq etməyə yarasaydı, konsepsiyanı bəyənib təqdir etmək olardı. Yeri gəlmişkən, bu parametrləri nəzərə alan "ağıllı" kitab dükanları, "book cafe"lər də az deyil. Məncə, məhz onlar nə etdiklərini çox yaxşı başa düşürlər. Bu barədə bir qədər sonra...

Bu yaxınlarda Bakının inkişaf etməkdə olan mikrorayonlarından birində "book cafe"yə girməli oldum. İçərisində cəlbedici aksesuarlar, kitabxana zalını xatırladan dekor, tutuquşu, akvarium və küncdəki rəfdə bir neçə kitab gördüm. Əslində, bu kateqoriya "kitabçılıq" da paytaxtımızda sürətlə inkişaf etməkdədir: yəni, kitab öz cazibəsi ilə ictimai iaşə xidmətlərinə də "əl yetirir".

Digər tərəfdən, bütün bu cəhdlər həm də kitabın arxasında gizlənməyə bənzəyir. Deyəsən, belə ərazilərdə mütaliəni, kitabı altşüuri olaraq sonraya saxlayanlar və sadəcə olaraq, kitabların arasında komfort zonası tapmaq istəyənlər qərar tutur. Təbiidir. Bu seqment bizim cəmiyyət üçün (kitabçı-oxucu) xarakterikdir. İdmanı sonraya saxlamaz, di gəl, kitab oxuyarkən yuxulayar...

Oxucu yoxdur deyərkən, əslində, ətrafımızda açılan bu "mənzərə"lərin kökünə baxmalıyıq. Mütaliə təkcə mədəniyyət deyil, vərdişdir: idman, gəzinti, qida və sair kimi. Erkən tərbiyənin, təhsilin təməlində durur, fundamental vərdişlər kateqoriyasında yer alır, bir nömrəli informasiya istehlakı mənbəyidir. Mütaliə vərdişi beyin hüceyrələri arasında harmonik kommunikasiyanın qurulmasına, hətta müasir dünyada artıb gedən bir çox xəstəliklərin qarşısının alınmasına idman qədər təsir edə bilir. Bu yanaşmanı, təfəkkürü formalaşdırmaq isə yəqin ki, uzun illər tələb edəcək. Bəlkə də, "Mədəniyyət - 2040" Konsepsiyasının, təhsilin, sağlamlıq və sosial sfera sisteminin birlikdə baxmalı olacağı uzunmüddətli strategiyaya dönəcək?

Müasir kitab dükanları isə təkcə kitab satışı, oyuncaqlar və dəftərxana ləvazimatları üçün yaramır: rahat mühit, tədbirlərin keçirilməsi mərkəzi kimi çoxfunksiyalı fəaliyyət həyata keçirərkən insanları kitab ətrafına toplayır. Tematik bölmələri, müasir dizaynı, xüsusilə də, oturuşmuş onlayn satış və çatdırılma platformasına inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərən kitab dükanları bu işin gələcəyini müəyyənləşdirməyə çalışır, (uşaq, elmi, bədii), mühit yaradır, düzgün təsnifat formalaşdırır, imza günləri, ədəbi müzakirələr və uşaqlar üçün yaradıcı tədbirlər keçirir.

Müasir kitab dükanları Süni İntellekt (Sİ) vasitəsilə tövsiyə sistemləri, inventar idarəetməsi və müştəri xidmətlərinin optimallaşdırılmasında da xeyli irəli gedib. Bu yanaşma kitabın təkcə məhsul deyil, həm də bir həyat tərzi və mədəniyyət komponenti kimi təqdim edilməsinə əsaslanır.

Kitab və mütaliə siyasəti mədəniyyət siyasətinin tərkib hissəsidir, amma o həm də cəmiyyətin vərdişləri siyahısında olmadıqca, daim sonraya saxlanıla, dönüb xidmət sahəsi, ictimai iaşə məkanı da ola bilər...

# Gülərək aldanmaq!



*Yeganə BAYRAMOVA*

## 1 aprel tarixçəsi haqqında...

Zarafat etmək təkcə əyləncə deyil, həm də sosial bacarıq sayılır. Yaxşı zarafat incə düşüncə və empatiya hissi tələb edir, insanları güldürür, onları bir anlıq gündəlik qayğılardan uzaqlaşdırır. Uğursuz zarafat isə əksinə, insanları incidə, münasibətləri zədələyə bilər. Elə buna görə də 1 aprel Ümumdünya Gülüş Günü həm də məsuliyyət sınağıdır.

Bu günün kökləri barədə müxtəlif versiyalar mövcuddur. Bəzilər onun orta əsr Avropasında təqvim dəyişiklikləri ilə bağlı yarandığını deyir, digərləri isə daha qədim folklor ənənələrinə bağlayır.

İlk olaraq 1 aprel müxtəlif ölkələr tərəfindən yazın gəlişi mənasını ifadə edirdi və bununla əlaqədar keçirilirdi. Bayramın atributlarından olan zarafatlar, əyləncələr və hazırlıqlar burada əvəzedilməz rol oynayırdı.

Aprelin ilk günü zarafat etmək qaydası isə birinci dəfə Fransada Yeni ilin gəlişi ilə əlaqədar keçirildi. XVI əsrin ikinci yarısına qədər Avropada yeni il həftəsi müddətində, yəni 25 martdan 1 aprelə qədər insanlar ürəkdən sevinirdilər. Bir - birlərinə qonaq gedirdilər, hədiyyələr bağışlayırdılar. 1 aprel Yeni ilin qədəm qoyduğu gün hesab olunurdu. 1582 - ci ildə Qriqor təqvimi Yulianla dəyişdirilib, nəticədə 1 aprel 1 yanvarla əvəz edilib. Bütün bunlara baxmayaraq əksər fransızlar Yeni ili 1 apreldə qeyd etməyə davam edirdi. 1 apreldə keçirilən yeni ili unutmaq üçün bu ənənəni dəyişdirməyə məcbur oldular, məhz bu səbəbdən bayramı keçirənləri "1 aprel axmaqları" adlandırdılar.

Bəzi tədqiqatçıların fikrinə görə, bu ənənə Qədim Hindistanda meydana gəlmişdi, 31 mart onlarda "Gülüş günü" kimi keçirilir.

"Gülüş günü"nün geniş səviyyədə yayılması XVIII əsrdə baş verdi. Beləcə uzun əsrlərin keçməsindən sonra dünyanın demək olar ki, bütün ölkələrində 1 aprel günündə dostları ilə zarafatlar edib gülən insanlara rast gəlmək mümkündür.

1 apreldə bir-birini aldatmaq adətinin meydana gəlməsi barədə müxtəlif versiyalar var. Ən çox yayılmış versiyanın kökü qədim Romaya çıxır. Romada təxminən 2 min il əvvəl hazırkı "Gülüş günü"nə oxşar bayramlar təşkil edilirmiş və bu bayramı ağılsızların günü adlandırırlarmış.

Hər şey isə qapı qulluqçularından birinin imperator Konstantinə zarafatla gülüşün dövlətə onun özündən çox fayda verə biləcəyini deyəcək qədər ürəklənməsindən başlayıb. Konstantin ona söylədiklərini həyata keçirmək imkanı verib və xüsusi qərar çıxarıb ki, ilin bir günü Romanı zarafatcıl şəxs idarə etsin.

Qədim zamanlarda bir çox ölkələrdə ildə bir dəfə - məhz aprelin 1-də "İtaətsizlik bayramı" keçirilirdi. Həmin gün adamlar cəzasız olaraq öz hökmdarlarını lağa qoya, gündəlik davranış qaydalarını poza bilər, öz mənfi emosiyalarını söndürə bilərdilər.

Rusiyada isə "Gülüş günü"nün tarixi I Pyotrun hakimiyyəti zamanına təsadüf edir. Həmin vaxt aprelin 1-də səhər Peterburqda əvvəllər yanğın təhlükəsindən xəbər verən həyəcan siqnalı çalınıb. Hamının yerindən dik atılmasına baxmayaraq, bu, zarafatyana tədbir idi.

Bu günü xoşbəxt olmayan gün sayanlar da var. Belə ki, Almaniya və Avstriyada aprelin 1-i xoşbəxt olmayan gün sayılırmış. Hesab edirlərmiş ki, bu tarixdə anadan olan adamın həyatda bəxti gətirməyəcək. Ona görə ki, aprelin 1-də İsa Məsihi satan İuda anadan olub. Şeytanın göydən yerə endiyi gün kimi dəyərləndirilən həmin tarixdə kəndlərdə heç kəs işləmirmiş. Həm böyüklər, həm də uşaqlar bir-birilərini aldadaraq əslində yerinə yetirilməsi mümkünsüz olan tapşırıqların arxasınca göndərirlərmiş.

Hazırda dünya əhalisinin 70 faizi 1 apreli "Gülüş günü" kimi qeyd edir, dost-tanışla zarafatlaşır. "Gülüş günü" yaxud "Axmaq günü" kimi adlandırılan bu bayram çox insanlar tərəfindən keçirilsə də, təqvimdə göstərilən bayramlar sırasına əlavə edilmir. Azərbaycanda da 1 aprel əksər insanlar tərəfindən "Gülüş günü" kimi qəbul olunur.

# Səmanın sakinləri...

## Quşların təbiətdə və həyatımızda rolu

*Yeganə BAYRAMOVA*

Səhər tezdən pəncərəni açarkən eşitdiyimiz quş səsləri sanki bütöv bir ekosistemin nəfəsini əks etdirir. Quşlar göy üzünün azad sakinləridir, təkcə gözəllik rəmzi deyil, həm də təbiətin tarazlığını qoruyan mühüm canlılardır. Alimlərin fikrincə, quşlar ekosistemin "gizli qəhrəmanları" sayılır. Onlar zərərverici həşəratların sayını tənzimləyərək kənd təsərrüfatına böyük fayda verir. Məsələn, bir cüt qaranquş gün ərzində yüzlərlə həşərat yeyə bilər. Bu isə kimyəvi pestisidlərə olan ehtiyacı azaldır və məhsulların daha təbii şəkildə yetişməsinə şərait yaradır.

Bundan əlavə, quşlar toxumların yayılmasında mühüm rol oynayır. Meşələrdə və çöllərdə bitkilərin çoxalması məhz quşların fəaliyyəti sayəsində mümkün olur. Onlar yedikləri meyvələrin toxumlarını uzaq məsafələrə daşıyaraq yeni bitki həyatının başlanğıcına səbəb olurlar. Bu isə təbiətin özünü yeniləmə mexanizminin əsas hissələrindən biridir.

**Stressi azaldır...**

Quşların insan həyatına təsiri yalnız ekoloji sahə ilə məhdudlaşmır. Onların səsi insan psixologiyasına müsbət təsir edir, stressi azaldır və sakitlik hissi yaradır. Şəhər həyatının səs-küyündə belə, bir quş səsi insanı təbiətlə bağlayan incə bir körpü rolunu oynayır. Eyni zamanda, quşlar iqlim dəyişikliklərinin göstəricisi kimi də çıxış edir. Onların miqrasiyası, sayındakı azalma və ya artım təbiətdə baş verən dəyişikliklər haqqında mühüm siqnallar verir. Bu səbəbdən, alimlər quş populyasiyalarını izləməklə planetimizin sağlamlığı barədə məlumat əldə edirlər.

Təəssüf ki, urbanizasiya, meşələrin qırılması və iqlim dəyişikliyi quşların həyatını təhlükə altına alır. Bir çox növlər yox olmaq təhlükəsi ilə üz-üzədir. Bu isə təkcə quşların yox, bütövlükdə ekosistemin zəifləməsi deməkdir.

**100-dən çox quş növünün nəsli kəsilib**

Dünyanın hər yerində aprelin 1-i quşlar günü kimi qeyd edilir. Quşların mühafizəsi üzrə beynəlxalq Konvensiya 1906-cı ilin məhz bu günündə imzalanıb. Həmin vaxtdan YUNESKO-nun "İnsan və biosfer" proqramı çərçivəsində Beynəlxalq quşlar günü keçirilir. Quşlar günü təkcə Konvensiyanın ildönümü günü deyil, həm də quşların qışlamadan qayıtdığı dövrdür. Ornitoloqlar bildirirlər ki, 1600-cü ildən indiyədək dünya üzrə təxminən 100-dən çox quş növünün nəsli kəsilib. Onların əksəriyyətinin dəniz adalarında kiçik populyasiyası olub. Bu gün də bir çox quş növlərinin nəsli kəsilmək üzrədir. Ona görə də bir çox ölkələr xüsusi qanunlar qəbul edib, köçəri quşların mühafizəsinə dair beynəlxalq sazişlərə qoşulublar.



Quşların bir çox rekordları heyranlıqla qarşılanır. Məsələn, suquzğunu balıq ovlamaq üçün məharətlə buzlu suya baş vurur, ördək və qazlar isə mənfi 110 dərəcə temperatura davam gətirirlər. Halbuki, ayılar və suitilər yalnız 80 dərəcəyədək soyuğa dözə bilirlər. Ən kiçik quş sayılan kolibrinin çəkisi 2 qram, açıq vəziyyətdə qanadları arasındakı məsafə 3 santimetrdir. Ən böyük quş sayılan Afrika dəvəquşunun çəkisi isə 18 kiloqrama çatır. Ən sürətli quş - şahin 45 dərəcə bucaq altında enərkən sürəti saatda 350 kilometrə çatdıra bilir. Su qaranquşları uçuş məsafəsinin uzaqlığına görə, imperator pinqvinləri isə suya baş vurmaqda rekordçudurlar.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4975
Sifariş: 402
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova